# DİQQƏT!

**SƏS QƏZETİNDƏN NOVBƏTİ YENİLİK!**

Səs qəzeti artiq Azərbaycanda ilk dəfə olaraq Video qəzet formatında nəşrə başladı.

Video xəbəri izləmək üçün telefonunuzun kamera bolməsinə daxil olub QR kodunu telefonunuza oxuduraq ekrana gələn linkə daxil olun.
**QEYD:** Android telefonlar üçün QR Code Reader skine proqramını telefonunuza yükləyərək videolara daxil ola bilərsiniz.



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir



# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 171 (6135) 30 sentyabr 2020-ci il. Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.



## "Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır"

*Azərbaycan Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalının "60 dəqiqə" proqramında sualları cavablandırıb*

Bax 5



## Mehriban Əliyeva: "Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!"

*Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb...*



Bax 4

## Almaniyalı deputat: "Ermənistan Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımalıdır"



*Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri, Bundestaqda sosial-demokratlar fraksiyasını təmsil edən Barbara Xendriksin fikrincə, Dağlıq Qarabağda "partlayış təhlükəli" vəziyyət yaranıb. B.Xendriks Almaniyanın DW portalına bu barədə müsahibəsində (https://amp.dw.com/ru/-boi-v-nagornom-karabahe-chto-govorjat-v-berline-/a-55083696) münaqişə iştirakçılarının...*

Bax 6

## Hər şey Vətən üçün, hər şey cəbhə üçün, hər şey qələbə üçün!

Bax 7

*Azərbaycanın haqq-ədalət müharibəsində millətimizə, dövlətimizə Uca və Qadir Allah yar və yardımçı olsun! Haqq və Həqiqət Əbədi və Əzəli olan Allah-Təaladır. Adil və Ədalət Bağışlayan, Mehriban və Əziz olan Allahdır. Allahı yolundan azdıq, halal-haram bilmədən haqqı nahaqqa, xeyiri şərə dəyişdik və zərərə uğradıq, imtahan olunduq. İndi səhvlərimizi, günazlarımızı tövbə edib əlimizdə ikən qədrini bilməyib...*



## Türkiyə vətəndaşları Prezident İlham Əliyevə yazırlar: "Ehtiyac olarsa, azərbaycanlı qardaşlarımızla birlikdə vuruşmağa hazırıq"



*Silahlı Qüvvələrimizin cəbhədə əldə etdiyi müvəffəqiyyətlər Azərbaycanla yanaşı, bir sıra xarici ölkələrin vətəndaşları tərəfindən də sevinclə qarşılanır. AZƏRTAC xəbər verir ki, həmin ölkələrin vətəndaşları sevinc hisslərini dövlətimizin başçısına yazdıqları...*

Bax 4

## Hikmət Hacıyev Türkiyədə akkreditə olunmuş aparıcı xarici KİV nümayəndələrinə videoformatda brifinq verib

Bax 3

*Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyə Respublikasında akkreditə olunmuş dünyanın aparıcı xarici KİV nümayəndələrinə (Wall Street Journal, Reuters, Voice of America, New York Times, CNN International...*




**Azərbaycan: bütün cəbhələrdə böyük qələbəyə!**



Bax 12

**Anar Eyvazov: "Bölmələrimiz yüksək peşəkarlıq göstərərək bütün cəbhəboyu sürətli əks-hücum əməliyyatını davam etdirir"**



Bax 10

**Müdafiə Nazirliyi: "Ermənistan ordusunun alay komandiri ağır yaralanıb"**




Bax 10

# "Əgər beynəlxalq ictimaiyyət ağılsız diktatoru dayandıra bilmirsə, Azərbaycan onları dayandıracaq"

## *Prezident İlham Əliyev Pakistanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi. Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi. Dövlətimizin başçısını salamlayan səfir Bilal Haye dedi:***

-Zati-aliləri cənab Prezident, mən Sizə Pakistanın Prezidenti və Baş Nazirinin salamlarını çatdırıram. Qardaş Azərbaycan xalqının Pakistan xalqı üçün xüsusi yeri var. Sizin də bildiyiniz kimi, Pakistan qardaş Azərbaycan xalqını Dağlıq Qarabağ məsələsində həmişə dəstəkləmişdir. Bizim qəlbimiz Azərbaycan xalqı ilədir. Cənab Prezident, rəhbərliyimiz tərəfindən mənə Azərbaycanla iqtisadi əməkdaşlığın dərinləşməsi, müdafiə sahəsində münasibətlərin gücləndirilməsi və iki ölkə xalqlarının daha da yaxınlaşdırılması istiqamətində çalışmaq tapşırılmışdır. Sizi əmin edirəm ki, bu vəzifələrin yerinə yetirilməsi üçün əlimdən gələni edəcəyəm. Təşəkkür edirəm.

Prezident İlham Əliyev:

-Xoş gəlmisiniz cənab səfir. Sizi görməyə çox şadam. Sizə ölkəmizdə yaxşı vaxt keçirməyi arzu edirəm. Əvvəla mən də sizdən ölkənizin Prezidentinə və Baş Nazirinə ən xoş salamlarımı çatdırmağınızı xahiş etmək istəyirəm. Onlarla görüşlərimi xatırlayıram. Cənab Prezidentlə bir neçə dəfə görüşmüşəm. Onunla son görüşümüzü və onun Bakıda keçirilmiş Qoşulmama Hərəkatının sammitində fəal iştirakını xatırlayıram. Davosda Dünya İqtisadi Forumunda cənab Baş Nazirlə də görüşüm xatirimdədir. Biz ölkələrimiz arasında strateji münasibətləri, qardaş münasibətlərini bir daha təsdiqlədik. Sizin də qeyd etdiyiniz kimi, Ermənistanla Azərbaycan arasında münaqişənin həlli ilə bağlı ölkənizin Azərbaycana davamlı dəstəyinə görə sizə minnətdarıq.

Bildiyiniz kimi, Azərbaycan bütün məsələlərdə və Kəşmir məsələsində həmişə Pakistanı dəstəkləyir. Bu qarşılıqlı dəstək bizim əməkdaşlığımızın qardaşlıq xüsusiyyətini əks etdirir. Əminəm ki, Azərbaycandakı fəaliyyətiniz zamanı ölkələrimiz arasında münasibətlər daha da güclənəcək. Sizin də qeyd etdiyiniz kimi, ikitərəfli əlaqələrdə siyasi sahədən əlavə biz iqtisadi məsələlər üzərində diqqətimizi cəmləşdirməliyik. Hesab edirəm ki, qarşılıqlı ticarəti stimullaşdırmaq və investisiyalar sahəsində daha fəal münasibətləri qurmaq üçün böyük potensial mövcuddur. Biz Azərbaycanın ərazi bütövlüyü məsələləri ilə bağlı Pakistanın qətiyyətli mövqeyinə görə minnətdarıq. Pakistan Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsinə görə Ermənistanı tanımayan ölkədir. Bu, qardaşlığın əsl nümayişidir. Bütün hallarda Pakistan həmişə bizim yanımızdadır və mən buna görə minnətdaram. Sizdən ölkənizin Xarici İşlər nazirinə mənim minnətdarlığımı çatdırmağınızı xahiş etmək istəyirəm. Bildiyiniz kimi, Pakistanın Xarici İşlər naziri bu yaxınlarda Ermənistanın ölkəmizə qarşı təxribatı ilə bağlı bəyanat vermişdir. Bu bəyanat bizim haqq işimizi tam dəstəkləyir. Sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı yeni hərbi təxribata başladı. Bu da onların işğalçı siyasətinin davamıdır. Keçən ay biz Ermənistan tərəfindən çox kəskin təcavüz aktlarını müşahidə etdik. İyul ayında baş verənlər beynəlxalq ictimaiyyətə yaxşı məlumdur və hər kəs bilir ki, Tovuz rayonunda Ermənistan-Azərbaycan dövlət sərhədində bizim kəndlərimizi və hərbi mövqelərimizi atəşə tutan Ermənistan olmuşdur. Bunun nəticəsində bir mülki şəxs öldürülmüşdür. Azərbaycan Ordusu cavab tədbiri görməli idi. Biz onlara adekvat cavab verdik. Onların müdafiə nazirinin əvvəl bəyan etdiyi kimi, yeni əraziləri işğal etmək planları uğursuzluğa düçar oldu. Azərbaycan Ordusu bir daha öz gücünü nümayiş etdirdi və erməni ordusu təxribatı dayandırmaq və etdiklərindən peşmançılıq keçirmək məcburiyyətində qaldı. Lakin əfsuslar ki, onların işğalçı və Azərbaycanofobiya siyasəti davam edir. Keçən ay, avqustun 23-də onlar ordumuz tərəfindən yaxalanan diversiya qrupu göndərdilər. Diversiya qrupunun başçısı yaxanlanmışdır və o, ifadələrində əsas hədəfin mülki şəxslərə hücum etmək, terror aktları törətmək və hərbi qulluqçularımıza hücum etməkdən ibarət olduğunu bildirdi. Biz onların müharibəyə hazırlaşdığını gördük.





*Ardı Səh. 3*

# “Əgər beynəlxalq ictimaiyyət ağılsız diktatoru dayandıra bilmirsə, Azərbaycan onları dayandıracaq”

## *Prezident İlham Əliyev Pakistanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib*

Əvvəli səh. 2

Mənim qeydlərim, bəyanatlarım, müsahibələrim və yeni təcavüzdən bir neçə gün öncə BMT Baş Assambleyasında çıxışım Ermənistanın dayandırılması barədə beynəlxalq ictimaiyyət üçün həmişə siqnal idi. Mən Ermənistanın açıq-aşkar yeni müharibəyə hazırlaşdığını və dayandırılmalı olduğunu dedim və bu, baş verdi. Sentyabrın 27-də onlar müxtəlif istiqamətlərdən bizim kəndlərimizə, hərbi mövqelərimizə hücum etməyə başladılar və bu iki gündə bizim mülki şəxslər arasında itkilərimiz olub. Əfsuslar olsun ki, mülki şəxslər arasında itkilərin sayı artmaqdadır. Bu ana kimi Ermənistan silahlı qüvvələri tərəfindən 10 mülki şəxs, o cümlədən aralarında iki uşaq olan 5 nəfərdən ibarət bir ailə öldürülüb. Mülki şəxslər arasında 20-dən çox yaralı var. Bu, bir daha erməni cinayətkar rejiminin faşist mahiyyətini nümayiş etdirir. Bu dəfə biz onlara növbəti dərs verəcəyik. Biz onlara artıq dərs vermişik və bu proses davam edəcək. Azərbaycan ordusu əks-hücum əməliyyatına başladı. İşğal altındakı bəzi ərazilər əks-hücum nəticəsinə azad edilmişdir. Azad edilmiş bu ərazilərə Azərbaycan bayrağı sancıldı. Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı davam edir. Biz öz torpağımızda döyüşürük. Dağlıq Qarabağ Azərbaycanın tarixi hissəsidir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir və beynəlxalq ictimaiyyət Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Ermənistanın uzun illər ərzində təcavüzü və işğalı nəinki bütün infrastrukturun dağılmasına gətirib çıxarıb, Xocalı soyqırımından başqa, onlar mədəni soyqırımı da törədiblər. Onlar mədəni soyqırımı törədiblər. Onlar bizim tarixi abidələrimizi dağıdıblar, bizim məscidlərimizi dağıdıblar. Onlar tərəfindən hələ dağıdılmayan məscidlər heyvan saxlamaq üçün istifadə edilir. Onlar bütün müsəlman dünyasını təhqir edirlər. Hansı rejimin hakimiyyətdə olmasından asılı olmayaraq onların islamofobiya və Azərbaycanofobiya siyasəti artıq Ermənistanın rəsmi ideologiyasına çevrilib. İki il bundan öncə əvvəlki hökumətin cinayətkar rejimi devrildi. Ümidlər var idi ki, yeni hökumət düşmənçiliyə son qoyacaq, nifrətə son qoyacaq. Əfsuslar olsun ki, yeni hökumət eyni yolla gedir. Paşinyanın diktator rejimi regionda sülh və təhlükəsizliyə təhdiddir. Təəssüflər olsun ki, beynəlxalq təşkilatlar Paşinyan rejiminin etdiklərinə göz yumur. Diktatorluq artıq Ermənistanda rəsmi siyasətə çevrilib. Əsas müxalifət partiyasının lideri bu yaxınlarda həbs olunub. İki sabiq prezident barəsində cinayət araşdırmaları aparılır. Həbslər olub. Jurnalistlər həbsxanada ölür. Siyasi müxalifət sıxışdırılır. Paşinyan Ermənistanın yeni diktatorudur. Lakin əfsuslar olsun ki, özünü həbsxanada əziyyət çəkən insanların müdafiəçisi kimi göstərən insan haqları təşkilatları reaksiya vermir. Bu, ikili standartların nümayişidir. Ermənistanın diktator rejimi dayandırılmalıdır və əgər beynəlxalq ictimaiyyət onları dayandırmasa, Azərbaycan onları dayandıracaq. Əgər beynəlxalq ictimaiyyət ədalətsizliyə və işğala dözürsə, əgər danışıqlara şərait yaratmaq üçün mandatı olan ölkələr öz məqsədlərinə çata bilmirlərsə, heç Ermənistan onların bəyanatlarına məhəl qoymur. Minsk qrupunun həmsədr ölkələrinin prezidentləri status-kvonun qəbuledilməz olması ilə bağlı bir neçə dəfə bəyanatlarla çıxış ediblər, Ermənistan buna məhəl qoymur və bu üç ölkəyə hörmətsizlik nümayiş etdirir. BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnaməsi var. Ermənistan demək olar ki, 30 ildir bu qətnamələrə məhəl qoymur və indi onların müdafiə naziri deyir ki, Azərbaycana qarşı, yeni ərazilər uğrunda yeni müharibə olacaq. Baş nazir deyir ki, Qarabağ Ermənistandır. O, göstərir ki, təkcə ölkə daxilində və beynəlxalq səviyyədə yalançı deyil, onun yalançı olması faktı bütün erməni xalqına yaxşı məlumdur. O, hər gün yalan danışır. Düşünürəm, o, yalan danışmaqdan dayana bilmir. Lakin Qarabağın Ermənistan olduğunu demək çirkin yalanın növbəti hissəsidir. Sonra o deyir ki, Azərbaycan Dağlıq Qarabağın marionet rejimi ilə danışıqlar aparmalıdır, bu isə danışıqların formatının dəyişməsi deməkdir. Sonra o, Livandan gələn ermənilərin işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşmasını bəyan edir. Onlar işğal olunmuş ərazilərdə hərbi təlim təşkil edirlər. Onlar Dağlıq Qarabağdakı cinayətkar rejimin saxta liderinin qondarma andiçmə mərasimini Azərbaycanın qədim şəhəri olan Şuşada təşkil edirlər. Dağlıq Qarabağın cinayətkar xuntasının qondarma parlamentini Şuşaya köçürməyi qərara alırlar və düşünürlər ki, biz buna dözəcəyik. Bu, Azərbaycan xalqının hisslərinin birbaşa təhqir olunmasıdır. Biz heç vaxt bununla razılaşmayacağıq və onlara yerlərini göstərəcəyik. Əgər beynəlxalq ictimaiyyət ağılsız diktatoru dayandıra bilmirsə, Azərbaycan onları dayandıracaq. Azərbaycan onlara yerini göstərəcək və öz ərazi bütövlüyünü bərpa edəcək.

Mən bir daha Pakistandakı qardaşlarımıza minnətdarlığımı bildirmək istərdim. Biz bu dəstəyi hiss edirik. Biz əməkdaşlığımızın bütün illəri boyunca bu dəstəyi hiss edirik. Siz də təsəvvürünüzə gətirə bilərsiniz ki, bu mühüm məqamda yanınızda kimin durması aydın görünür. Biz görürük ki, bu gün bizim yanımızda olanlar öz mövqelərini açıq şəkildə ifadə edən ölkələrdir - qardaş Türkiyə və qardaş Pakistan. Türkiyə Prezidenti, qardaşım Ermənistan-Azərbaycan münaqişəsi məsələsi ilə bağlı çox qətiyyətli mövqeyini dəfələrlə ifadə edib və Ermənistanın təcavüzü zamanı o, bir neçə dəfə açıq şəkildə bəyanat verib ki, Türkiyə bizim yanımızdadır, Azərbaycan tək deyil. Mən qardaşıma, bütün türk qardaşlarımıza, Türkiyənin bütün liderlərinə minnətdaram! Türkiyənin bütün aparıcı siyasi partiyaları da Azərbaycana dəstək olaraq yekdil mövqe ifadə etdilər. Biz onlara minnətdarıq. Biz, həmçinin bu mühüm məqamda bizim yanımızda olmaqla qəti mövqe nümayiş etdirən Pakistandakı qardaşlarımıza minnətdarıq. Bu, necə deyərlər, həqiqət anıdır. Biz kimin kim olduğunu görürük, kimin bizim yanımızda möhkəm dayandığını görürük və bunu heç vaxt unutmayacağıq. Cənab səfir, bir daha Prezidentə, Baş Nazirə, Xarici İşlər nazirinə, Pakistandakı bütün qardaşlarımıza təşəkkürümü çatdırın. Bizim dostluğumuz və qardaşlığımız davam edəcək.

Səfir Bilal Haye: Cənab Prezident, icazə verin vaxt ayırdığınıza görə Sizə bir daha təşəkkürümü bildirim. Sizə məlumat vermək istəyirəm ki, bu gün Qoşulmama Hərəkatının nazirlər səviyyəsində toplantısında çıxışı zamanı Xarici İşlər nazirimiz Dağlıq Qarabağ məsələsi ilə bağlı Azərbaycanın haqq işinə Pakistanın dəstəyini bir daha ifadə edəcək. Biz bildirmək istəyirik ki, sizin mövqeyiniz ədalətli, qanunidir və bu məsələnin həlli qeyri-müəyyən müddətə təxirə salına bilməz, çünki bu, ədalətli mövqedir. Biz Qarabağ Azərbaycandır! deməkdən çox xoşbəxtik.

Prezident İlham Əliyev: Çox sağ olun.

## Almaniya Kansleri Angela Merkel Prezident İlham Əliyevə telefonla zəng edib

***Sentyabrın 29-da Almaniya Kansleri Angela Merkel Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.***



Angela Merkel Ermənistan-Azərbaycan təmas xəttində silahlı qarşıdurmanın baş verməsi ilə bağlı ölkəsinin narahatlığını ifadə edib və hadisələrin gedişi ilə maraqlanıb.

Dövlətimizin başçısı qeyd edib ki, sentyabrın 27-də, səhər saatlarında Ermənistan Azərbaycana qarşı hərbi təxribat törədərək, ağır artilleriya qurğularından təmas xətti boyu yerləşən hərbi birləşmələrimizi, şəhər və kəndlərimizi atəşə tutması nəticəsində iki gün ərzində hərbçilərimiz, 10 mülki şəxs, o cümlədən iki uşaq həlak olub, 29 mülki şəxs yaralanıb, 150 yaşayış evi dağıdılıb. Azərbaycan tərəfi əks-hücum əməliyyatına başlayıb.

Dövlətimizin başçısı bildirib ki, bundan əvvəl də iyul-avqust aylarında Ermənistan tərəfindən ölkəmizə qarşı hərbi təxribatlar törədilib və bunların nəticəsində hərbçilərimiz və mülki şəxslərimiz həlak olub. Prezident İlham Əliyev bu təxribatları Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin davamı olduğunu vurğulayıb.

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan baş nazirinin “Qarabağ Ermənistandır və nöqtə” bəyanatı danışıqlar prosesini mənasız edir və Ermənistan rəhbərliyinin Azərbaycandan dırnaqarası “Dağlıq Qarabağ respublikası” ilə danışıqlar aparması tələbi danışıqlar formatının dəyişdirilməsi cəhdi kimi qiymətləndirilməlidir. Dövlətimizin başçısı, eyni zamanda, bildirib ki, Ermənistanın müdafiə naziri yeni torpaqlar uğrunda yeni müharibə ilə Azərbaycanı hədələyib və bu plan reallıqda həyata keçirilir.

Dövlətimizin başçısı vurğulayıb ki, Ermənistanın hərbi təxribatı ilə bağlı hadisələrin gələcək inkişafına görə məsuliyyət Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür, Azərbaycan Ordusu öz torpaqlarında vuruşur və Ermənistan ordusu Azərbaycan torpaqlarında olmamalıdır.

Prezident İlham Əliyev əlavə edib ki, Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərinə başqa ölkələrdən xarici vətəndaşların qanunsuz məskunlaşmasını həyata keçirir ki, bu da Cenevrə Konvensiyasına görə beynəlxalq hüququn ciddi pozulmasıdır və bu, müharibə cinayəti sayılır. Söhbət zamanı atəşkəsin və danışıqlar prosesinin bərpa edilməsi imkanları barədə müzakirələr aparılıb.

## Hikmət Hacıyev Türkiyədə akkreditə olunmuş aparıcı xarici KİV nümayəndələrinə videoformatda brifinq verib

Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyə Respublikasında akkreditə olunmuş dünyanın aparıcı xarici KİV nümayəndələrinə (Wall Street Journal, Reuters, Voice of America, New York Times, CNN International, Politico, Deutsche Well, El Pais, El Periodico, ORF, Bloomberg və Journo) videoformatda mətbuat brifinqi verib.




AZƏRTAC xəbər verir ki, Ermənistan silahlı qüvvələrinin son təxribatları barədə məlumat verən Hikmət Hacıyev cəbhəboyu zonada yerləşən mövqelərimizin və yaşayış məntəqələrimizin qəsdən intensiv surətdə atəşə tutulduğunu bildirib. Mülki əhali arasında həlak olan və yaralananların olduğunu təəssüflə bildirən Prezidentin köməkçisi indiyədək 2-si azyaşlı olmaqla 10 nəfərin həlak olduğunu və 30 nəfərin yaralandığını qeyd edib.

Habelə Hikmət Hacıyev ordumuzun əsas məqsədinin Ermənistanın növbəti hərbi təcavüzünün qarşısının alınması, mülki əhalinin təhlükəsizliyinin təmin edilməsi, ələlxüsus ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün təmin edilməsi olduğunu bildirib. Daha sonra Prezidentin köməkçisi jurnalistlərin suallarını cavablandırıb və onları Azərbaycana dəvət edib.

# Mehriban Əliyeva: “Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!”

***Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!***



AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi “Instagram” səhifəsində etdiyi paylaşımda yer alıb.

Paylaşımda daha sonra deyilir: “Ermənistanın növbəti silahlı təxribatına cavab verildi! Azərbaycan Ordusu öz Vətənini müdafiə edərək, uğurlu əks-hücum əməliyyatı keçirir və Azərbaycanın işğal altında olan ərazilərini azad edir.

Azərbaycan dövlətinə və xalqına dəstək olaraq öz prinsipial və ədalətli mövqeyini nümayiş etdirən bütün insanlara, təşkilatlara və dövlətlərə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, qardaş Türkiyə xalqına və şəxsən Prezident Rəcəb Tayyib Ərdoğana minnətdaram. Onların həmrəyliyi və mənəvi dəstəyi bu gün hər bir azərbaycanlıya qürur hissi yaşadır. Azərbaycanın bütün əsgərlərinin, zabitlərinin həyatı və sağlamlığı üçün dua edirəm!

Bu gün biz azərbaycanlılar niyyətimizlə, hərəkət və dualarımızla misli görülməmiş birlik göstəririk. Ulu Tanrı Azərbaycan xalqına onun müqəddəs mübarizəsində yar olsun!

Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin!

Allah şəhidlərimizə rəhmət etsin! Qəbirləri nurla dolsun!”.

# Türkiyə vətəndaşları Prezident İlham Əliyevə yazırlar: “Ehtiyac olarsa, azərbaycanlı qardaşlarımızla birlikdə vuruşmağa hazırıq”

***Silahlı Qüvvələrimizin cəbhədə əldə etdiyi müvəffəqiyyətlər Azərbaycanla yanaşı, bir sıra xarici ölkələrin vətəndaşları tərəfindən də sevinclə qarşılanır. AZƏRTAC xəbər verir ki, həmin ölkələrin vətəndaşları sevinc hisslərini dövlətimizin başçısına yazdıqları məktublarda ifadə edirlər.***

Türkiyənin Adana şəhərindən Efe Hüsem yazır: “Hörmətli cənab Prezident, mən Türkiyənin Adana şəhərində həkim işləyirəm. Doğma Vətən, qardaş ölkə Azərbaycanda Tibb Universitetində təhsil almışam. Erməni işğalçıları ilə cəbhədə vuruşan qardaşlarıma lazım olarsa ya həkim kimi, ya da bacardığım başqa iş üzrə xidmət göstərməyə hər an hazıram. Şübhəsiz, çağırış etsəniz, ən qısa zamanda gələrəm. Ürəyim Sizinlədir. Allah yar və yardımçınız olsun”.



İstanbul şəhərindən Amanat Aydın: “Hörmətli cənab Prezident, Azərbaycan Ordusunun düşmənə qarşı lazımi müdafiə tədbirlərini ən yüksək səviyyədə təşkil etdiyini və əks-hücumla ermənilərə sarsıdıcı zərbələr endirdiyini sosial mediadan öyrəndim. Haqsızlığı özünə məslək bilən, qardaş ölkəmin insanlarına qəsd edən, adını belə çəkməyə dilim gəlməyən aciz topluya qarşı təbii ki, gücünüzün yetəcəyini atalarımızdan gələn qandan bilirəm. Ancaq ehtiyac olarsa, qardaş ölkəmin bu mübarizəsində hər zaman yanınızdayam. Türk milləti olaraq birimizə olunan haqsızlıq hamımıza edilən haqsızlıqdır. Hər zaman qardaş ölkəmin yanında olacağımı bildirir, böyüklərin əllərindən, kiçiklərin gözlərindən öpürəm”.

Ankara şəhərindən Suat Muratoğlu: “Hörmətli cənab Prezident. Mən Türkiyə vətəndaşıyam. Xaraktersiz ermənilərin əməllərini şiddətlə qınayıram. Davanız davam, yolunuz yolumdur. Azərbaycan mənim də ölkəmdir. Lazım gələrsə, Sizin ölkəniz üçün də vuruşmağa, şəhid olmağa tərəddüd etmərəm. Dualarım Sizinlədir. Ehtiyac olarsa, sevə-sevə cəbhəyə getməyə və qardaşlarımla birlikdə vuruşmağa hazıram. Allah yardımcısınız olsun. Şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza da qısa zamanda şəfa tapmalarını diləyirəm”.

İstanbul şəhərindən Hakan Yıldız yazır: “Hörmətli cənab Prezident, qardaş ölkəmizə və bütün vətəndaşlarınıza mənim və ətrafımda olan insanların səmimi salamlarını çatdıraraq haqq işinizdə uğurlar arzulayıram. Əziz Prezident, mən və ətrafımda olan çoxsaylı insanlar rəhbərliyinizlə qazanılan rəşadətli qələbə sevincini Sizinlə bölüşmək üçün yanınızda olmaqdan şərəf duyarıq. Azərbaycan bizim ikinci Vətənimizdir. Sizi öz rəhbərimiz kimi sevir, qərarlarınızı dəstəkləyirik. Hamımızın duaları qələbə qazanmağınız üçündür”.

Tekirdağ şəhərindən Özdoğan Məhəmməd və Satı Levent yazırlar: “Hörmətli cənab Prezident, bu çətin günlərdə Sizə yaxşı və sağlam çalışmalar və uğurlar diləyirəm. Mənim 24 yaşım var. Vətənin bu çətin günündə azərbaycanlı qardaşlarımın yanında olmaq istəyirəm. Hər hansı bir əmriniz olarsa canla-başla yerinə yetirməyə hazıram. Cənab Ali Baş Komandan, ermənilərə qarşı hərbi əməliyyatların iştirakçısı olmaqdan qürur duyardım. Əmrinizi gözləyirəm”.

Almaniyanın Dortmund şəhərində yaşayan türk vətəndaşı Halil Deniz Kalakli yazır: “Hörmətli cənab Prezident, mən Almaniyada yaşayan türk vətəndaşıyam. Azərbaycanın Ermənistanla yaşadığı problemi yaxından izləyirəm. Burada bir qərar tuta bilmirəm. Hazırda böyük narahatlıq içərisində Azərbaycan Silahlı Qüvvələrinin zəfər çalması üçün dualar edirik. Türkiyədə yaşadığım dövrdə Türk Özəl Qüvvələrində əsgərlik etmişəm. İcazənizlə Azərbaycana gəlib Sizlərlə bərabər ermənilərə qarşı vuruşmaq istəyirəm. Burada bir çox türk qardaşlarımız da Azərbaycana gəlib qardaşlarımıza dəstək vermək istəyirlər. Eyni zamanda, Türkiyədə yaşayan həmvətənlərim də eyni duyğu və düşüncə içərisindədirlər. Artıq Ermənistana sərt bir sillə vurmağın zamanı gəlmişdir. Ermənilər türkün əsl gücünü görməlidirlər. Birlikdə onların üzərinə getməliyik. Hörmətli cənab Prezident, əmr etdiyiniz anda yanınızda olacağımı bilməyinizi istəyirəm. Sizi və bütün azərbaycanlı qardaşlarımızı Allaha əmanət edirəm”.

Şanlıurfa şəhərindən Babacan Eyüp: “Hörmətli cənab Prezident, ilk növbədə, Sizə salamlarımı çatdırır, ehtiramımı bildirirəm. Erməni işğalçıları ilə apardığınız mübarizədə Türkiyə xalqı olaraq, sonuna qədər yanınızda olduğumuzu, dualarımızın Sizinlə birlikdə olduğunu bilməyinizi istəyirik. Rəbbim qardaş Azərbaycanın yardımçısı olsun. Hər zaman can qardaşlarımızın yanındayıq. Tutduğunuz bu haqq yolunda Sizə zəfər arzulayıram”.

# YAP Ermənistanın cəbhəboyu təmas xəttində yeni hərbi təxribatları ilə əlaqədar beynəlxalq siyasi partiya təşkilatlarına müraciət ünvanlayıb



Yeni Azərbaycan Partiyası (YAP) Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatı və Azərbaycan Ordusunun erməni işğalçılarına qarşı apardığı mübarizə ilə əlaqədar beynəlxalq siyasi partiya təşkilatlarına və tərəfdaş siyasi partiyalara müraciət ünvanlayıb. Bu barədə AZƏRTAC-a YAP-ın mətbuat xidmətindən məlumat verilib.

Müraciətdə deyilir: “Sentyabrın 27-də Ermənistan silahlı qüvvələri hücum edərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutmuşdur. Ermənistan ordusu tərəfindən Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndlərinin intensiv atəşə tutulması nəticəsində mülki Azərbaycan əhalisi arasında həlak olan və yaralananlar var, mülki infrastruktur obyektlərinə ciddi ziyan dəymişdir. Ermənistanın bu növbəti təxribatının qarşısını almaq, mülki əhalini qorumaq üçün Azərbaycan Ordusu cəbhə boyunca əks-hücum əməliyyatına başlamışdır”.

YAP-ın müraciətində daha sonra qeyd olunur ki, Azərbaycanın Ermənistan tərəfindən işğal olunan Dağlıq Qarabağ zonasında 1994-cü ildən etibarən atəşkəs rejiminin qüvvədə olmasına baxmayaraq, işğalçı tərəf mütəmadi olaraq cəbhə xəttində və sərhəd bölgələrində Azərbaycanın mülki əhalisini və yaşayış məntəqələrini hədəfə alan təxribatlar törətməkdədir. Ermənistan bu ilin iyul ayında Azərbaycanın münaqişə zonasına aid olmayan Tovuz rayonu istiqamətində sərhəd boyu qanlı toqquşma törətmiş, avqustda isə digər bir sərhəd rayonu olan Goranboyda kəşfiyyat-diversiya əməliyyatı həyata keçirməyə cəhd etmişdir. Bütün bunlarla kifayətlənməyən Ermənistan rəhbərliyi beynəlxalq hüquq normalarını kobud şəkildə pozaraq işğal edilmiş ərazilərdə qeyri-qanuni şəkildə məskunlaşdırma aparır.

“Ermənistan rəhbərliyi bu cür təxribatlarla ölkə əhalisinin diqqətini hökumətin yarıtmaz daxili və xarici siyasətinin nəticələrindən, dərinləşməkdə olan sosial-iqtisadi və siyasi böhrandan, pandemiya ilə uğursuz mübarizədən və digər problemlərdən yayındırmağa çalışır. Sarkisyanın xunta rejiminin səhvlərindən nəticə çıxarmayan Paşinyanın diktatura hökuməti işğalçı siyasəti davam etdirmək və genişləndirməklə təkcə Ermənistanın vəziyyətini daha da çətinləşdirmir, həm də bütün regionda sülhü və təhlükəsizliyi ciddi şəkildə təhdid edir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ bölgəsini və 7 ətraf rayonu BMT Təhlükəsizlik Şurasının və bir çox digər beynəlxalq təşkilatların qətnamələrinə zidd olaraq 30 ilə yaxındır ki, işğal altında saxlayan, bir milyon insanın tərk etməyə məcbur olduğu doğma yurd-yuvasına qayıtmasına imkan verməyən işğalçı Ermənistanın törətdiyi son təxribatlar, yaşayış məntəqələrinin atəşə tutulması beynəlxalq hüququn, eləcə də 1949-cu il Cenevrə Konvensiyalarının kobud şəkildə pozulması deməkdir”, - deyə müraciətdə bildirilir.

YAP beynəlxalq ictimaiyyətə müraciətində daha sonra qeyd edir ki, vəziyyətin daha da gərginləşməsi, qanlı toqquşmaların yenilənməsi həm də bu illər ərzində aparıcı beynəlxalq təşkilatların, eləcə də münaqişənin tənzimlənməsi ilə məşğul olmalı olan ATƏT-in Minsk qrupunun passivliyinin, Ermənistanın işğalçı, təcavüzkar siyasətindən əl çəkməsi üçün lazımi təzyiq göstərməməsinin nəticəsidir.

Azərbaycanın öz ərazilərini və əhalisini müdafiə etmək hüququ vardır. Beynəlxalq təşkilatlar münaqişənin tezliklə həllini tapması üçün işğala son qoyulmasına, Azərbaycanın ərazi bütövlüyünün bərpasına, bir milyon məcburi köçkünün öz torpaqlarına qayıtmasına dəstək göstərməlidir. Yaşadığımız XXI əsrdə dövlətlərin BMT tərəfindən tanınan sərhədlərinin zor tətbiq etməklə dəyişdirilməsinə, təcavüzə, işğala, etnik təmizləmələrə, işğal altında olan ərazilərin qeyri-qanuni məskunlaşmasına yer ola bilməz və olmamalıdır.

“Yeni Azərbaycan Partiyası tərəfdaş siyasi partiyaları və beynəlxalq siyasi partiya təşkilatlarını Azərbaycanın ərazi bütövlüyünün və əhalisinin təhlükəsizliyinin təmin olunması istiqamətində mübarizəsini və beynəlxalq hüquqa söykənən ədalətli mövqeyini dəstəkləməyə, 30 ildir davam edən Ermənistanın təcavüzkar siyasətini qətiyyətlə pisləməyə, işğalın aradan qaldırılması, beynəlxalq hüququn və ədalətin bərqərar olunması naminə lazımi addımları atmağa çağırır”, - deyə müraciətdə vurğulanır.

Müraciət Yeni Azərbaycan Partiyasının əməkdaşlıq etdiyi Asiya Siyasi Partiyaları Beynəlxalq Konfransına (İCAPP), Mərkəzçi Demokrat İnternasionalına, Türkiyənin Ədalət və İnkişaf Partiyasına, Rusiyanın “Vahid Rusiya” (“Edinaə Rossiə”) Partiyasına, “İsrail bizim evimizdir” partiyasına, Çin Kommunist Partiyasına, Yaponiya Liberal-Demokrat Partiyasına, Vyetnam Kommunist Partiyasına, Qazaxıstanın “Nur Otan” Partiyasına, Macarıstanın “FİDESZ” Partiyasına, eləcə də Pakistanın, Cənubi Koreyanın, Malayziyanın, Banqladeşin, Laosun, İndoneziyanın, Rumıniyanın, Bolqarıstanın, Serbiyanın və digər ölkələrin hakim siyasi partiyalarına və beynəlxalq təşkilatlara ünvanlanıb.

# “Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır”

## *Azərbaycan Prezidenti İlham Əliyev “Rossiya-1” telekanalının “60 dəqiqə” proqramında sualları cavablandırıb*

***Sentyabrın 29-da “Rossiya-1” telekanalında yayımlanan “60 dəqiqə” proqramında Azərbaycan-Ermənistan təmas xəttində baş verən son hadisələrə həsr olunan veriliş efirə gedib. AZƏRTAC xəbər verir ki, verilişdə Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan aparıcıların suallarını cavablandırıblar.***

Verilişin aparıcıları birinci olaraq sualları Azərbaycan Prezidenti İlham Əliyevə ünvanlayıblar.

Aparıcı: Cənab Prezident, sağ olun ki, bu müsahibəni verməyə razılaşmısınız. İndi birbaşa cəbhədə nələr baş verir, artıq aviasiyadan istifadə edilməsi barədə məlumat alınır.

Prezident İlham Əliyev: Cəbhədə vəziyyət gərgindir. Ermənilərin sentyabrın 27-də səhər başladıqları hərbi təxribat nəticəsində Azərbaycanın yaşayış məntəqələri və bizim döyüş mövqelərimiz şiddətli artilleriya atəşinə məruz qalıb. Bu təcavüz nəticəsində Azərbaycanın 11 dinc sakini, o cümlədən 2 uşaq həlak olub, hərbi qulluqçular arasında da həlak olanlar var. Biz təcavüzkara adekvat cavab verməyə və beləliklə, öz xalqımızı, öz adamlarımızı və torpağımızı müdafiə etməyə məcbur idik. Beləliklə, artıq üçüncü sutkadır ki, şiddətli döyüşlər gedir, bu döyüşlər nəticəsində Azərbaycan Ordusu bir sıra yaşayış məntəqələrini işğaldan azad edib, həmçinin müxtəlif istiqamətlərdə strateji yüksəklikləri tutub. Bu gün vəziyyət elədir ki, fəal döyüş əməliyyatları aparılır.

***Aparıcı: İlham Heydər oğlu, xahiş edirəm Türkiyənin rolunu izah edin. Ankara Prezidentin və Xarici işlər nazirinin şəxsində rəsmən bəyan edib ki, döyüş meydanında sizə kömək edəcək.***

Prezident İlham Əliyev: Hesab edirəm ki, Türkiyənin rolu regionda sabitləşdirici xarakter daşıyır. Türkiyə bizə qardaş ölkə və bizim müttəfiqimizdir. Ermənistanın Azərbaycana hücum etməsini dünya ictimaiyyətinin bildiyi ilk saatdan etibarən Türkiyə dövlət başçısı və digər rəhbərlər səviyyəsində birmənalı olaraq Azərbaycanı dəstəklədiyini, beynəlxalq hüququ dəstəklədiyini bildirib. Ona görə ki, Ermənistan 30 ilə yaxın müddətdə Azərbaycan ərazisini işğalda saxlamaqla beynəlxalq hüququ kobud şəkildə pozur. Türkiyənin rolu əslində məhz bundan ibarətdir, başqa heç bir rolu yoxdur. Türkiyə bizə mənəvi dəstək göstərir və biz Türkiyə rəhbərliyinə, Türkiyə Prezidentinə və türk xalqına bizimlə həmrəy olduğuna və bizi dəstəklədiklərinə görə təşəkkür edirik. Guya Türkiyənin münaqişə tərəfi kimi iştirak etməsi barədə erməni tərəfin yaydığı bütün şayiələr təxribat xarakteri daşıyır, indiki dildə desək bu, feyk-nyusdur. Türkiyənin münaqişədə iştirakı barədə heç bir sübut yoxdur və buna zərurət yoxdur. Azərbaycan Ordusu öz xalqının və öz ərazisinin müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlıdır.

***Aparıcı: İlham Heydər oğlu, beləliklə, Siz belə bir informasiyanı təsdiq etmirsiniz, üstəlik onu təkzib edirsiniz ki, bir saat bundan əvvəl Türkiyə Hərbi Hava Qüvvələri Ermənistan Hərbi Hava Qüvvələrinə məxsus təyyarəni vurub. Söhbət F-16 və SU-25 təyyarələrindən gedir.***



Prezident İlham Əliyev: Bizim bu barədə məlumatımız yoxdur. Lap yaxın vaxtda mənə məruzə ediblər ki, informasiya məkanında belə bir xəbər yayılıb. O, heç nə ilə təsdiq edilməyib. Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələri döyüş əməliyyatlarında heç bir şəkildə iştirak etmir. Bilirsiniz ki, bu gün müasir texnologiyaları nəzərə alsaq nəyisə gizlətmək çox çətindir. Çünki obyektiv müşahidə formaları var, peyk müşahidələri var və ona görə də bunun növbəti təxribat olmasını yoxlamaq çox asandır. Erməni tərəfin bu cür yalan xəbərlər yaratmaqda məqsədi bizə aydındır. Əvvəla, öz ərazi bütövlüyünün bərpası vəzifəsini hazırda şərəflə yerinə yetirən Azərbaycan Ordusunun döyüş qabiliyyətini süni şəkildə azaltmaq, həmçinin belə təsəvvür yaratmaq ki, münaqişə genişlənir, ona üçüncü ölkələr qoşulur və beləliklə, öz təxribatına haqq qazandırmaq üçün mümkün qədər çox ölkə cəlb etməyə çalışmaq. Buna görə sizə məsuliyyətlə bəyan edirəm ki, Türkiyə münaqişə tərəfi deyil, münaqişədə heç bir şəkildə iştirak etmir və buna zərurət yoxdur.

***Aparıcı: İlham Heydər oğlu, Sizin ölkəniz Ermənistan tərəfindən bir neçə rayonun azad edilməsini nəzərdə tutan Kazan formuluna və ya hər hansı başqa formula tərəf meyil etməyə hazırdırmı? Prinsip etibarilə indi nə etmək olar? Otuz il ərzində Qarabağ münaqişəsinin gah alovlanması, gah da közərməsi şəraitində necə dönüş etməli? Nə etməli?***

Prezident İlham Əliyev: Bilirsiniz, Azərbaycan danışıqlarda həmişə konstruktivlik nümayiş etdirib. Vasitəçilik missiyası üçün cavabdeh olan Minsk qrupunun həmsədrləri də bunu təsdiq edə bilərlər. O cümlədən son iki ildə mən dəfələrlə və başqa məsul şəxslər səviyyəsində bəyan etmişik ki, biz illər boyu işlənib hazırlanmış, Minsk qrupunun və onun həmsədrlərinin danışıqlar prosesi üçün əsas hesab etdikləri nizamlama prinsiplərinə sadiqik. Üstəlik son iki ildə və bundan əvvəl də dəfələrlə bəyan etmişik ki, biz danışıqların formatına da sadiqik. Danışıqlar Ermənistan ilə Azərbaycan arasında aparılır. Münaqişənin yalnız iki tərəfi var. Bəzən münaqişədən söhbət gedəndə bütün tərəflər haqqında danışırlar. Bu, düzgün anlayış deyil. Bütün tərəflər yoxdur, yalnız iki tərəf var - Ermənistan və Azərbaycan. Lakin son illər ərzində, Ermənistandakı indiki hakimiyyətin törətdiyi Soros çevrilişindən sonra nələr baş verib? Ermənistanın baş naziri açıq-aşkar bəyan edir ki, “Qarabağ Ermənistandır və nöqtə”. Belə olan halda hansı danışıqlar prosesindən söhbət gedə bilər. Axı ATƏT-in Minsk qrupu tərəfindən işlənib hazırlanmış prinsiplərin mahiyyəti ondan ibarətdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ətrafındakı ərazilər Azərbaycana verilməlidir. Lakin Ermənistanın baş naziri deyir ki, “Qarabağ Ermənistandır” və üstəlik, deyir ki, biz danışıqları Dağlıq Qarabağın oyuncaq rejimi ilə aparmalıyıq. Beləliklə, danışıqların artıq 20 ildən bəri mövcud olan formatını dəyişməyə çalışır. Deməli, Ermənistan bilərəkdən danışıqlar prosesini pozur, qəbuledilməz tələblər irəli sürür və əgər Minsk qrupu son vaxtlar nizamlamaya kimin əngəl olması barədə daha fəal danışmağa başlayırsa, sentyabrın 27-də, bundan əvvəl isə iyulun 12-də olduğu kimi, təxribatlar törədirlər. Bizim dövlət sərhədindəki mövqelərimizə hücum edilib. Sonra avqustun 23-də Ermənistanın təxribat qrupu tutulub, bu qrupun başçısı təmas xəttində saxlanılıb. Bütün bunlar Azərbaycanı təqsirləndirmək, sonra üçüncü tərəfləri cəlb etmək və beləliklə, danışıqlar prosesini pozmaq üçün edilir. Ona görə ki, erməni tərəfi status-kvonu saxlamaq istəyir. ATƏT-in Minsk qrupunun həmsədrləri isə Rusiya, Fransa və ABŞ-ın dövlət başçılarının şəxsində dəfələrlə bəyanatlar veriblər ki, status-kvo qəbuledilməzdir. Bu isə o deməkdir ki, işğal altında olan ərazilər Azərbaycana qaytarılmalıdır. Biz danışıqlara sadiqik, lakin Ermənistan tərəfindən tamamilə əks hərəkətlər görürük.

***Aparıcı: Cənab Prezident, xahiş edirəm deyin, bazar günü nə baş verib, bu qədər genişmiqyaslı və qanlı qarşıdurmaya təhrik edən nə olub?***

Prezident İlham Əliyev: Bilirsinizmi, bazar günü baş verən hadisələrə Ermənistan artıq bir neçə ay idi ki, hazırlaşırdı. Əgər siz onların hərəkətlərinin və bəyanatlarının xronologiyasını izləsəniz aşkar görərsiniz ki, onlar bu təxribata şüurlu şəkildə gedirdilər. Bu yaxınlarda, BMT Baş Assambleyasının tribunasından çıxış edərkən mən açıq demişəm ki, Ermənistan müharibəyə hazırlaşır və onu dayandırmaq lazımdır. İyul ayında onlar bizim dövlət sərhədindəki yaşayış məntəqələrimizə silahlı hücum etdilər. Bu, münaqişə zonasından uzaq bir yerdir. O vaxt bir dinc sakin və bir neçə hərbi qulluqçu həlak oldu. Döyüşlər dörd gün davam etdi və Ermənistan ərazisində bizim heç bir hərbi hədəfimiz olmayıb və yoxdur. Buna görə də Ermənistan silahlı qüvvələri bizim ərazidən çıxarılandan dərhal sonra qarşılıqlı razılaşmaya əsasən atəş dayandırıldı. Daha sonra mənim dediyim kimi, təxribat qrupu bizim ərazimizə soxuldu, həmin qrup neytrallaşdırıldı. Sonra erməni tərəfi açıq-aşkar, nümayişkəranə şəkildə əslən Livandan olan ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərində və qədim Şuşa şəhərində məskunlaşdırılmasını elan edir, bu da müharibə cinayətidir. Bu, Cenevrə Konvensiyasının pozulması deməkdir. Bunu nümayişkəranə şəkildə edirlər. Sonra onlar Şuşada - Azərbaycan mədəniyyətinin qədim incisində cinayətkar Dağlıq Qarabağ rejiminin qondarma başçısının qondarma inauqurasiyasını keçirirlər. Bütün bunlar bizə qarşı şüurlu provokasiyalar, bizi münaqişəyə cəlb etmək və cavab hərəkətlərinə təhrik etməkdir. Biz təmkin, konstruktivlik və sağlam düşüncə nümayiş etdirdik, lakin onların niyyətləri baş tutmayanda bu cür cəhd göstərdilər. Üstəlik, daha bir səbəb Ermənistanda mövcud olan daxili siyasi böhrandır. Axı bu gün Ermənistanda Soros rejimi mövcuddur. Belarusda baş tutmayan çevriliş iki il bundan əvvəl Yerevanda baş tutdu. Bu gün Paşinyanın şəxsində Ermənistanın rəhbəri Sorosun əlaltısıdır. Bu adam çoxlu vədlər verib və bu vədləri yerinə yetirə bilmir, əslində ölkə böhran içindədir.

Beləliklə, ona bir xarici amil, necə deyərlər, qarışıqlıq lazım idi ki, əhalinin diqqətini yayındırsın, o da bunu edə bildi. Onlar növbəti dəfə bizə hücum etməzdən düz iki gün əvvəl Ermənistanın əsas müxalifət partiyasının lideri həbs edildi. Yəni, Paşinyanın diktator, despotik rejimi öz ölkəsindəki bütün müxalifəti məhv edirdi və indi Azərbaycan xalqına qarşı yenidən təcavüz nümayiş etdirir.

***Aparıcı: Sizin mövqeyiniz aydındır. Çox sağ olun. Mümkündürsə lap qısa cavab verin: hə, ya yox. İndi cəbhədə Suriyadan olan muzdlular varmı?***

Prezident İlham Əliyev: Yoxdur. Bu, növbəti feyk-nyusdur. Suriyadan heç bir muzdlu yoxdur. Bu barədə heç bir fakt, heç bir sübut yoxdur. Bunu erməni təbliğatı ortaya atıb və müxtəlif saytlarda, müxtəlif kütləvi informasiya vasitələrində dövr edir. Buna heç bir ehtiyac yoxdur. Azərbaycanın hazırlıqlı ordusu var, çox böyük səfərbərlik ehtiyatı var. Dünən mən qismən səfərbərlik elan etmişəm. Biz 2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin.

***Aparıcı: Çox sağ olun. İlham Əliyev bizimlə Bakıdan əlaqədə idi. Sizə cansağlığı arzulayırıq, görüşənədək. Çox sağ olun.***

Prezident İlham Əliyev: Sağ olun. Görüşənədək.

# İlham Əliyev: “Azərbaycan “Dayanıqlı İnkişaf Məqsədləri”nin icrasına mühüm əhəmiyyət verir”

*Prezident İlham Əliyev “COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi” mövzusunda dövlət və hökumət başçılarının toplantısında videoformatda çıxış edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 29-da “COVID-19 dövrü və sonrakı dönəmdə Dayanıqlı İnkişaf Məqsədlərinin 2030-cu il Gündəliyinin maliyyələşdirilməsi” mövzusunda dövlət və hökumət başçılarının toplantısında videoformatda çıxış edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısının çıxışı 2020-ci il 25 sentyabr tarixində çəkilib.***

Prezident İlham Əliyevin çıxışı

Cənab Baş katib.

Hörmətli dövlət və hökumət başçıları.

Azərbaycan “Dayanıqlı İnkişaf Məqsədləri”nin icrasına mühüm əhəmiyyət verir. Biz 2016-cı ildə əsas vəzifəsi milli prioritetlərin müəyyən edilməsindən, müxtəlif dövlət proqram və strategiyalarının “Dayanıqlı İnkişaf Məqsədləri” ilə uzlaşdırılmasından ibarət olan Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası təsis etmişik.

Azərbaycan “Minilliyin İnkişaf Məqsədləri”nə nail olmuş, “Dayanıqlı İnkişaf Məqsədləri”nin icrasında isə ciddi irəliləyiş əldə etmişdir.

Bizim nailiyyətimiz “2020-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatı”nda əks olunmuşdur. Belə ki, oradakı “Dayanıqlı İnkişaf Hədəfləri İndeksi”nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşmışdır.

Azərbaycan BMT-yə iki dəfə könüllü milli hesabat təqdim edən azsaylı ölkələrdən biridir.

Azərbaycanın iqtisadiyyatı sürətlə inkişaf etmişdir. Son 17 il ərzində ümumi daxili məhsul 3 dəfə artmışdır. Azərbaycanda yoxsulluq son 17 il ərzində 49 faizdən 5 faizə enmişdir.

Azərbaycanın xarici dövlət borcu dünyada ən aşağı səviyyələrdədir, ümumi daxili məhsulun təqribən 20 faizini təşkil edir. Bu göstəriciyə görə Azərbaycan dünyada 9-cu yerdədir. Neft ixrac edən dövlətlər arasında ən az xarici dövlət borcu olan Azərbaycandır. Azərbaycanın valyuta ehtiyatları xarici dövlət borcundan 6 dəfə çoxdur.

Son 17 ildə Azərbaycanın iqtisadiyyatına 260 milyard dollardan çox sərmayə yatırılmışdır. Beynəlxalq Valyuta Fondunun statistikasına görə, hazırda Azərbaycan iqtisadiyyatı alıcılıq qabiliyyəti paritetinə görə Cənubi Qafqaz regionunun ümumi iqtisadiyyatının 70 faizini təşkil edir.

Azərbaycan enerji sahəsindən əldə olunan gəlirlərin indiki və gələcək nəsillər arasında ədalətli bölgüsünə xüsusi əhəmiyyət verir. Bu məqsədlə 1999-cu ildə Dövlət Neft Fondu yaradılmışdır. Yaranma vaxtı aktivlərinin 270 milyon dollar təşkil etdiyi Fondun bu günə olan aktivlərinin həcmi ölkənin ümumi daxili məhsulunu üstələyir. Azərbaycan gəlirlərin ədalətli bölgüsünün səviyyəsinə görə dünya üzrə ən yüksək pillələrdədir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü ölkə ərazisinin 20 faizinin işğalı ilə nəticələnmişdir. İşğal nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan qaçqın və məcburi köçkünlərin həyat və yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində çox böyük işlər görmüşdür. Bu həssas qrupdan olan şəxslərin ehtiyaclarının təmin edilməsi üçün bu günədək 8 milyard manata yaxın və ya təqribən 5 milyard dollar həcmində vəsait sərf edilmişdir. 300 mindən artıq məcburi köçkün pulsuz ev və mənzillərlə təmin olunmuşdur.

Torpaqlarımızın Ermənistan tərəfindən işğalı nəticəsində meydana gəlmiş çətinliklər səbəbindən Azərbaycan müstəqilliyinin ilk illərində beynəlxalq ictimaiyyətdən humanitar yardım qəbul edirdi. Daha sonra isə Azərbaycan özü donor ölkəyə çevrildi. Son 15 ildə Azərbaycan 120-yə yaxın ölkəyə maliyyə və humanitar yardımı göstərmişdir.

COVID-19 pandemiyası dünyanın bütün ölkələrinə mənfi təsir göstərmişdir. Milyonlarla insanın kəskin yoxsulluq vəziyyətinə düşəcəyi gözləniləndir.

Pandemiya bizim iqtisadiyyata da təsir etmişdir. Pandemiya dövründə dövlət gəlirlərinin azalmasına baxmayaraq, hökumət iş yerlərinin və səhiyyənin qorunması, habelə iqtisadi inkişafı təmin etmək məqsədilə ümumi daxili məhsulun 3 faizi həcmində maliyyə vəsaiti ayırmışdır.

Pandemiyanın fəsadlarının aradan qaldırılması, iqtisadi sabitlik, makroiqtisadi və maliyyə dayanıqlığının təmin edilməsi, işsizlik probleminin həlli məqsədilə 2 milyard dollar həcmində iqtisadi-sosial yardım paketi təqdim edilmişdir. Sosial dəstək tədbirləri təqribən 5 milyon vətəndaşı, yəni, ölkə əhalisinin yarısını əhatə edir.

Pandemiya ilə mübarizənin maliyyələşdirilməsi xarici maliyyə yardımı olmadan, yalnız daxili mənbələr hesabına həyata keçirilir. Bundan əlavə, Azərbaycan COVID-19 ilə bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımı göstərib.

Pandemiyadan sonrakı dövrdə bizim əsas prioritetlərimiz - iqtisadi inkişafı, iqtisadi və maliyyə sabitliyini təmin etmək, sağlam və rəqabətqabiliyyətli insan kapitalını daha da inkişaf etdirmək, dayanıqlı iş yerləri yaratmaq və iqtisadi fəaliyyətin yeni sahələrini inkişaf etdirməkdən ibarətdir.

Bəşəriyyət pandemiyaya qarşı mübarizə və onun fəsadlarının aradan qaldırılmasına yalnız həmrəylik və birgə səylər sayəsində nail ola bilər. Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə üzrə Xüsusi Sessiyasının keçirilməsini təklif etmişdir. Bu təşəbbüs BMT-nin üzvü olan 130-dan çox ölkə tərəfindən dəstəkləndi.

İnanıram ki, Xüsusi Sessiya pandemiyanın təsir etdiyi bütün sahələrin kompleks şəkildə müzakirə olunmasında çərçivə rolunu oynayacaq və onun yaratdığı fəsadların aradan qaldırılması səylərinə töhfə verəcəkdir. Sağ olun!

## Azərbaycan Milli Məclisinin və Pakistan Senatının sədrləri arasında telefon danışığı olub




Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova ilə Pakistan İslam Respublikası Senatının Sədri Məhəmməd Sadiq Sancrani arasında telefon danışığı olub. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, telefon danışığı zamanı Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlar müzakirə olunub.

Spiker bildirib ki, 27 sentyabr tarixində səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələri atəşkəs rejimini kobud şəkildə pozaraq Azərbaycan ordusunun cəbhə zonasında yerləşən mövqelərini iriçaplı silahlar, minaatanlar və artilleriya qurğularından intensiv atəşə tutub. Ermənistan silahlı qüvvələrinin cəbhəyanı ərazilərdə sıx şəkildə yaşayan mülki insanları və obyektləri atəşə tutması işğalçı ölkə və onun hərbi-siyasi rəhbərliyi tərəfindən qəsdən və hədəflənmiş şəkildə həyata keçirilmiş təxribatdır.

Milli Məclisin Sədri mülki əhali və hərbi qulluqçular arasında həlak olan və yaralananların olduğunu pakistanlı həmkarının diqqətinə çatdırıb. Spiker xüsusi olaraq qeyd edib ki, vəziyyətin gərginləşməsinin məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

## Almaniyalı deputat: “Ermənistan Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımalıdır”



Almaniya-Cənubi Qafqaz parlament qrupunun rəhbəri, Bundestaqda sosial-demokratlar fraksiyasını təmsil edən Barbara Xendriksin fikrincə, Dağlıq Qarabağda “partlayış təhlükəli” vəziyyət yaranıb.

B.Xendriks Almaniyanın DW portalına bu barədə müsahibəsində (https://amp.dw.com/ru/boi-v-nagornom-karabahe-chto-govorjat-v-berline/a-55083696) münaqişə iştirakçılarının “ölçülüb-biçilmiş şəkildə hərəkət edəcəklərinə” ümid bəslədiyini bildirib. AZƏRTAC xəbər verir ki, deputat vəziyyətin budəfəki gərginləşməsinə görə kimin məsuliyyət daşıması barədə qəti rəy söyləməyib, lakin onun fikrincə, əsas problem bundan ibarətdir ki, Ermənistan beynəlxalq hüququn bu regiona tətbiqən qüvvəsini tanımır.

Alman nəşrinə müsahibəsində “birmənalı olaraq aydındır ki, indiki vəziyyətdə beynəlxalq hüquq Azərbaycanın tərəfindədir”, - söyləyən Xendriksin fikrincə, ermənilər üçün nə qədər çətin olsa da, Yerevan Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanımalıdır.

Almaniyanın “Yaşıllar” Partiyasından Avropa Parlamentinin deputatı Sergey Laqodinski isə belə hesab edir ki, Ermənistan güzəştə getməlidir. O deyib: “Ermənistan da daxil olmaqla heç bir ölkə Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayıb”. Avropa Parlamenti deputatının sözlərinə görə, Dağlıq Qarabağa yalnız “mədəni muxtariyyət” verilməsi barədə söhbət olmalıdır.

# Azərbaycan Ağsaqqallar Şurasının VIII qurultayı keçirilib

***Sentyabrın 29-da Azərbaycan Ağsaqqallar Şurasının (AAŞ) videokonfrans formatında növbədənkənar VIII qurultayı keçirilib. Qurultayda Şuranın üzvləri, dövlət və hökumət rəsmiləri, Milli Məclisin deputatları iştirak ediblər. AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov qurultayı açaraq, cəbhə bölgəsində sentyabrın 27-dən başlayan erməni təxribatından danışıb. O, rəşadətli Azərbaycan Ordusunun Ermənistan silahlı birləşmələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatlarının vətəndaşlarımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırdığını və hər kəsin, o cümlədən ağsaqqalların əsgərlərimizin yanında olduğunu bildirib.***



Şuranın ötən qurultaydan sonra vəfat etmiş sədri Fəttah Heydərovun, eləcə də dünyasını dəyişmiş digər şura üzvlərinin, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olmuş oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Gündəliyə uyğun olaraq, əvvəlcə AAŞ-ın yeni redaksiyada işlənmiş nizamnaməsi səsə qoyularaq təsdiqlənib.

Sonra çıxış edən Prezident Administrasiyasının şöbə müdiri Ədalət Vəliyev qurultay iştirakçılarına dövlət başçısı İlham Əliyevin təbrikini çatdırıb. Ədalət Vəliyev Ermənistanın cəbhə xəttində törətdiyi hərbi təxribatdan danışıb, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun qarşıya qoyulan tapşırığı layiqincə yerinə yetirəcəyinə əminliyini bildirib.

"Prezident İlham Əliyevin ağsaqqallarımızdan gözləntisi hər zaman xalqın arasında, haqqın yanında olmaları, milli birliyə xidmət etmələri, xalqımızı qələbəyə ruhlandırmalarıdır", - deyən Ədalət Vəliyev ağsaqqalların gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında yaxından iştirak etmələrinin əhəmiyyətini vurğulayıb. "Prezidentin ağsaqqallardan digər gözləntiləri Azərbaycan xalqının milli-mənəvi dəyərlərini, ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsini gələcək nəsillərə çatdırmaqdır. İnanırıq ki, Ağsaqqallar Şurası bu istiqamətdə səylərini daha da artıracaq", - deyə şöbə müdiri qeyd edib.

Milli Məclisin deputatı, professor Eldar Quliyevin böyük təşkilatçılıq və idarəçilik qabiliyyətinə malik olduğu vurğulanıb və Azərbaycan Ağsaqqallar Şurasının sədri vəzifəsinə onun namizədliyi irəli sürülüb.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxışında son günlər doğma torpaqlarımızın erməni işğalından azad olunması uğrunda haqq mücadiləmizdə qazandığımız zəfərlərin davamlı olmasını arzulayıb, Uca Yaradanın nəzərində ən uca mərtəbə olan şəhidlik zirvəsinə yüksələn qəhrəman övladlarımıza Allah-Təaladan rəhmət diləyib. Allahşükür Paşazadə Şuşa məscidindən azan səsinin eşidiləcəyi günü səbirsizliklə gözlədiyini vurğulayıb.

Milli Məclisin deputatları Eldar İbrahimov, Ziyad Səmədzadə və Əhliman Əmiraslanov çıxışlarında ağsaqqallarımızın cəmiyyətdəki rolundan danışıb, AAŞ sədri vəzifəsinə E.Quliyevin namizədliyini dəstəkləyiblər. Sonra Eldar Quliyevin AAŞ sədri vəzifəsinə təsdiqlənməsi təklifi səsə qoyulub və qəbul olunub.

Ağsaqqallar Şurasının yeni sədri çıxış edərək ona göstərilən etimada görə minnətdarlığını bildirib. Qeyd edib ki, vaxtilə ulu öndərimiz Heydər Əliyev respublika ağsaqqallarına göstərdiyi diqqət və qayğını bu gün Prezident İlham Əliyev davam etdirir. Azərbaycanın sürətlə inkişaf etdiyini, əhalinin rifah halının günbəgün yaxşılaşdığını vurğulayan AAŞ sədri deyib ki, ağsaqqallar Prezident İlham Əliyevin dövlətçiliyimizin qüdrətlənməsi, torpaqlarımızın işğaldan azad olunması istiqamətində apardığı məqsədyönlü siyasəti hər zaman dəstəkləyirlər.

Eldar Quliyev son günlər cəbhədə baş verən hadisələrə də toxunub, erməni təxribatını pisləyərək Azərbaycan əsgərinin Ali Baş Komandanın rəhbərliyi ilə düşmənə layiqli cavab verdiyini deyib, tezliklə qələbə xəbərini eşidəcəyimizə əminliyini ifadə edib. O, AAŞ-ın sədri kimi fəaliyyəti dövründə gənclərimizin vətənpərvərlik ruhunun yüksəldilməsi istiqamətində addımlar atılacağını, ağsaqqalların bölgələrə səfərlərinin təşkil olunacağını, hərbi hissələrdə müntəzəm görüşlər keçiriləcəyini bildirib. Daha sonra Azərbaycan Ağsaqqallar Şurasının İdarə heyətinin üzvləri seçilib və gündəlikdəki digər məsələlərə baxılıb. Qurultayda Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul olunub.

## Pakistan vətəndaşı Prezidentə yazır

Başladığınız haqq işində Türkiyə xalqı ilə yanaşı, bizim də ürəyimiz Azərbaycan xalqı ilə birlikdə döyünür. SİA xəbər verir ki, bu fikir Pakistanın Multan şəhərinin sakini Məsud Əhmədin Prezident İlham Əliyevə məktubunda yer alıb.



Məktubda deyilir: "Möhtərəm cənab Prezident, mən ölkənizlə dost və qardaş münasibətində olan Pakistanın vətəndaşı olaraq ölkəmin Sizin və böyük xalqınızın yanında olduğunu, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanı tam qəlbimizlə dəstəklədiyimizi bildirməkdən şərəf duyuram. Dağlıq Qarabağı və onu əhatə edən 7 rayonu işğaldan azad etmək üçün başladığınız haqq işində Türkiyə xalqı ilə yanaşı, bizim də ürəyimiz Azərbaycan xalqı ilə birlikdə döyünür. Allahdan müqəddəs niyyətinizə çatmaq üçün xalqınıza kömək olmasını, ölkənizin daim çiçəklənmə və tərəqqi yolunda inkişaf etməsini arzulayıram. Allahın mərhəməti daim üzərinizdə olsun. Xeyirli dualarımız sizlərdən əksik deyil".

# Hər şey Vətən üçün, hər şey cəbhə üçün, hər şey qələbə üçün!



*Rasim Quliyev, "Resurs" Analitik İnformasiya Mərkəzinin rəhbəri*

***Azərbaycanın haqq-ədalət müharibəsində millətimizə, dövlətimizə Uca və Qadir Allah yar və yardımçı olsun! Haqq və Həqiqət Əbədi və Əzəli olan Allah-Təaladır. Adil və Ədalət Bağışlayan, Mehriban və Əziz olan Allahdır.***

Allahın yolundan azdıq, halal-haram bilmədən haqqı nahaqqa, xeyiri şərə dəyişdik və zərərə uğradıq, imtahan olunduq. İndi səhvlərimizi, günazlarımızı tövbə edib əlimizdə ikən qədrini bilməyib itirdiklərimizi döyüşüb geri qaytarmalıyıq və Allah dərgahında sağ olan şəhidlərimiz haqq uğrunda, ədalət uğrunda, hiylələrin, məkrlərin birləşərək Xocalıda, Şuşada, Daşaltıda və çay kənarında bəbək oynadan, dünyanın hiyləsinə saf su kimi baxan günahsız qızcığazın qətlə yetirilməsinə, ailəsinin, ana-atasının, bacı-qardaşının gülləbaran olunmasına sinəsini sipər edən igid oğullar tapdalanmış haqq və ədalət uğrunda qorxmadan şəhidlik zirvəsinə, uca dərgaha yüksəldilər.

Və bu gün haqq müharibəsinə qalxan Azərbaycan Xalqı beynəlxalq hüquqda və Allah qarşısında öz təbii haqqını müdafiə edir.

Quranda və beynəlxalq hüquqda bu barədə nə deyilir?

Qurani-Şərif. Muhəmməd surəsi dördüncü ayədə (surə 47, ayə 4). Buna görə də kafirlərlə (muharibədə) qarşılaşan zaman onların, boyunlarını vurun (ilk iş öldürməkdir). Nəhayət, elə ki, onları qırıb əldən saldınız, (onları əsir götürün və) bağlarını möhkəm bağlayın. Sonra onlara ya azad etməklə minnət qoyun və yaxud fidyə (onun əvəzində mal və əsir) alın ki, müharibə silahını yerə qoysun və yatsın. Budur (Allahın əmri). Əgər Allah istəsəydi, onlardan Özü intiqam alardı. Lakin sizin bəzinizi digər bəziniz ilə (möminləri kafirlərlə, kafirləri mömünlərlə) sınamaq üçün (belə edir). Allah yolunda öldürülmüş kəslərin əməllərini (Allah) əsla itirmir (və onlara çoxlu mükafat verir) və sonra həmin surənin 35-ci ayəsində (Surə 47, ayə 35) deyilir. Buna görə də üstün olduğunuz, Allah sizinlə birgə olduğu və sizin əməllərinizi heç vaxt mükafatsız qoymayacağı bir halda zəiflik və süstlük göstərməyin və (düşməni) barışığa dəvət etməyin.

Torpaqlarımızın işğaldan azad olunması xəritəsi genişləndikcə və yüksəkliklər, zirvələr düşmən ünsürlərdən təmizləndikcə dünyanın və özümüzün nəzərində yüksələn Azərbaycan dövləti, Azərbaycan vətəndaşı, Azərbaycan vətəni, Azərbaycan türkü, Azərbaycan ruhu qəlbləri fəth edir.

Qurani-Şərif Fəth surəsi 1-ci və 2-ci ayələrində (surə 48, ayə 1 və 2) deyilir.

Surə 48, ayə 1

Həqiqətən Biz sənə zəfər - (kafirlərə qarşı dəlil-sübutlarla və çoxlu qələbələrlə mübarizədə) aşkar bir zəfər bəxş etdik.

Surə 48, ayə 2 ki,

Allah sənin keçmiş və gələcək günahlarını bağışlasın, sənə (olan) nemətini tamamlasın, səni doğru yola hidayət etsin.

Bu dünyanı bizlər üçün nemətlərlə dolduran və bəzəyib bizim ixtiyarımıza verən Uca və Qadir Allah Azərbaycana və bizə sonsuz nemətlər və cənnətməkan, altı-üstü bərəkətli torpağı Vətən qərar vermişdir. Bu nemətlərin, bu bərəkətin qədrini bilib şükür secdəsini az etdik ki, bir müddətə düşmənlərlə sınağa çəkildik. Sınağa çəkilib, bədəlini ödəyib haqqımızı qaytarıb qədir-qiymətini daha çox bilməliyik bu vətənin, bu torpağın və güzəştə getməməliyik.

Hüquqi müstəvidə bugünkü dünyanın idarə olunduğu bütün hüquqi norma və qaydalarda beynəlxalq hüquqi sənədlərdə göstərilir ki, Ermənistan Azərbaycan ərazisinin 20%-ni zəbt edib, işğal altında saxlayır və bu torpaqlar Azərbaycan dövlətinin sərhədlərinə daxildir və bu torpaqlar Azərbaycan xalqının vətənidir, milli sərvətidir.

Birləşmiş Millətlər Təşkilatının Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərindən Ermənistan qoşunlarının çıxarılması ilə dərhal azad edilməsi tələbini bildirən 4 qətnamə indiyədək icra olunmayıb. ATƏT, Avropa Şurası, Qoşulmama Hərəkatında birləşən dövlətlərin təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Şanxay Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası və demək olar ki, bütün beynəlxalq platformalar, beynəlxalq konfranslar və ayrı-ayrılıqda demək olar ki, bütün dövlətlər bu və ya digər formada rəsmi şəkildə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunduğunu təsdiq ediblər və eyni zamanda ya birbaşa bu işğal faktını pisləyiblər, ya da tövsiyə ediblər ki, Azərbaycanın ərazi bütövlüyü təmin olunmalıdır.

Bunu bütün dünya billə-billə işğalçını maddi yardım ilə, hərbi vasitələrlə və Azərbaycanla bərabər dialoqa dəvət etməklə siyasi dəstək verən ikibaşlı oynayan, ikili standart dediyimiz hiylə, riya və ikiüzlü çoxluq! İndi sizin dediyinizi Azərbaycan icra edir. BMT-nin qətnamələrini icra edir və ikiüzlü çoxluğun qarşısında Türkiyə ilə çiyin-çiyinə dayanıb və küräyini də Pakistan kimi dostlara söykəyib.

Dur deyən ikiüzlü, ikistandartlı Qərb bütün dünya dövlətləri adından BMT-nin qəbul etdiyi qətnaməni 28 ildir Ermənistan saymır, Azərbaycan icra edir. Bəs burada nəyi müzakirə etmək lazımdır ki? Regiona təhlükə və mənfi impuls verən müharibəni 30 ildir mənasız danışıqları pozan və danışıqların perspektivinin üstündən xətt çəkən Ermənistanın yeni baş naziri olub. İndi yalnız bir məsələ ola bilər ki, Ermənistan ordusu təslim olub hərbi müqavimət göstərməməli və bütün hərbi təminatı təhvil verməlidir.

Sözsüz ki, Azərbaycan Ordusunun zəfər yürüşü və bütün beynəlxalq təzyiqlər qarşısında Türkiyənin tək və birmənalı dayanmasının qısaca Quranla və hüquqi haqqımız olduğunu bildirdik, bəs bu yürüşün, bu dönüşün mənəvi-psixoloji tərəfdən baxanda görünüşü necədir?

Bir türk müsəlman dövlətinə qarşı ənənəvi Qərb ikiüzlüyünə Azərbaycan sillesi türkdilli dövlətlərin özünəinamını artırdı. Bundan sonra hər hansı masada və platformada türkdilli dövlətlərin mənəvi-psixoloji üstünlüyünü xeyli artırdı və bu dövlətlərin də inteqrasiyasında böyük təsiri olacaq. Necə ki, Sovet ittifaqının dağılmasında Qarabağ və 20 Yanvar hadisələri ilə Azərbaycan böyük rol oynamışdı, bu zəfər yürüşü də Qərbin çürük, Avropa İttifaqının xristian klubu və İslamofobiya psixi maniyadan uzağa gedə bilmədikləri üçün qaçılmaz tənəzzülü fonunda güclənən və inkişaf edən Türk İttifaqı üçün vacib mənəvi addım ola bilər. Bu zəfər yürüşü Qarabağı özünün problemi sayan türk qardaşlığımızın örnək ola biləcəyi Təbrizi və başqa qardaşlarımızı da düşündürəcək.

Haydı qardaşlar, hər şey Vətən üçün, hər şey cəbhə üçün, hər şey qələbə üçün irəli!

# Prezidentə yazırlar: Azərbaycan vətəndaşları bir nəfər kimi Sizin, dövlətimizin, ordumuzun yanındadır!

***Azərbaycan Ordusunun Ermənistan silahlı birləşmələrinə qarşı həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatları vətəndaşlarımızda qələbə əzmini, ruh yüksəkliyini daha da artırıb. Bu, Azərbaycan vətəndaşlarının Prezident, Ali Baş Komandan İlham Əliyevə göndərdiyi təbrik və təşəkkür məktublarından da aydın görünür.***



Qeyd edək ki, Azərbaycan vətəndaşlarından əlavə bir sıra xarici ölkələrin vətəndaşları da dövlətimizin başçısına məktublar ünvanlayırlar. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

İsmayıllı rayonunun müharibə, əmək və silahlı qüvvələr veteranları adından Ələləm Babayev yazır: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, sentyabrın 27-də faşist Ermənistanın növbəti təxribatından və onların bütün cəbhəboyu yaşayış məntəqələrimizi artilleriya qurğularından atəşə tutmasından dərhal sonra şanlı ordumuzun əks hücumu nəticəsində düşmənə layiqli cavab verilmişdir. Ordumuz gün ərzində uzun illər işğal altında olan yeddi kəndimizi və ən strateji yüksəklik olan Murovdağ silsiləsini mənfur düşməndən azad etmişdir. Bu qələbələr bizi çox sevindirir. Biz çox inanırıq ki, Sizin rəhbərliyinizlə şanlı ordumuz işğal altında olan bütün torpaqlarımızı düşmən tapdağından azad edəcək və zəfər çalacaq. Çünki bizim işimiz haqq işidir".

Bakı şəhərinin sakini Arif Əliyev: "Hörmətli cənab Prezident, Ermənistan silahlı qüvvələrinin hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusunun başladığı uğurlu əks-hücum əməliyyatını qətiyyətlə dəstəkləyirik. Ordumuzun uğurları hər bir azərbaycanlı kimi, bizə də sevinc və sonsuz qürur hissi yaşadır. Qarabağ bizim doğma dədə-baba torpağımızdır. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır və bu gün bizim mübarizəmiz haqq mübarizəsidir. Azərbaycan vətəndaşları bir nəfər kimi Sizin, dövlətimizin, Ordumuzun yanındadır. Biz əminik ki, Azərbaycan Ordusu Sizin Ali Baş Komandanlığınızla düşmən üzərində layiqli zəfər çalacaq, Azərbaycan bayrağı əzəli torpağımız Qarabağda dalğalanacaq. Otuz ilə yaxın doğma torpaqlarından didərgin düşən soydaşlarımız tezliklə öz yurdlarına qayıda biləcəklər. Bu haqq yolunda zəfər çalacağımıza inanırıq və bu yolda Sizə, ordumuza yeni uğurlar diləyirik".

Bakı şəhərinin daha bir sakini Ağayar Məmmədov: "Hörmətli cənab Prezident, Sizin və çox hörmətli Mehriban xanımın Azərbaycan xalqına göstərdiyiniz diqqət və qayğı bizim gələcəyə ümidimizi daha da artırır. Cənab Ali Baş Komandan, işğal olunmuş torpaqlarımızın azad edilməsi üçün ordumuza verdiyiniz tapşırıq nəticəsində Silahlı Qüvvələrimizin Ermənistan ordusunu darmadağın etməsi hər birimizdə tezliklə böyük qələbəyə qovuşacağımıza əminlik yaradıb. İnanırıq ki, Sizin müdrikliyiniz və qayğıkeşliyiniz sayəsində az itki ilə qələbə qazanacağıq. Allah Sizi və ailənizi qorusun".

Şirvan şəhərinin sakini Leyla İbadovanın məktubunda deyilir: "Hörmətli cənab Prezident, Ali Baş Komandan, mən bir vətəndaş, bir müəllim olaraq son zamanlarda baş verən hadisələrlə bağlı atdığınız addımları bəyəndiyimizi və Sizi dəstəklədiyimizi bildirirəm. Biz başa düşürük ki, Siz Azərbaycan xalqının 30 illik nisgilinə son qoymaq üçün, şəhidlərimizin məzarlarında rahat uyuması, torpaqlarımızın işğaldan azad olunması və gələcək nəsillərin xoşbəxtliyi üçün bu addımı atmış, ölkədə hərbi vəziyyət elan edərək əks-hücum əmrini vermisiniz. Şərəfli mübarizəmizdə sözsüz ki, şəhidlərimiz də olacaq. Ancaq biz bilirik ki, azadlıq bəxş edilmir, qan bahasına alınır. Odur ki, düşmənin amansızlığı, müharibənin dəhşəti Azərbaycan xalqını qorxuda bilməz. Keçən gün ordumuzun apardığı hərbi əməliyyatlar nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Aşağı Əbdürrəhmanlı, Yuxarı Əbdürrəhmanlı, kənd Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Böyük Mərcanlı kəndlərinin azad olunması və Murov yüksəkliyinin ordumuzun nəzarəti altına keçməsi xəbəri vətəndaşlar içərisində çox böyük sevinc və nikbinlik yaradıb. İnanırıq ki, Sizin apardığınız düzgün siyasətiniz və Azərbaycan Ordusunun əzmi, şücaəti sayəsində düşmən məhv ediləcək, torpaqlarımız bütünlüklə azad olunacaq, şəhid analarının yanan qəlbinə su səpiləcək. Cənab Ali Baş Komandan, əmin olun ki, bu çətin və şərəfli işdə Azərbaycan xalqı yekdilliklə Sizin yanınızdadır".

Qobustan şəhərindən Rəssam Azadə yazır: "Hörmətli cənab Ali Baş Komandan, bu gün hamının düşüncəsi bütünlüklə Azərbaycan əsgərinin döyüş əzminə, qələbə ruhuna köklənib. Bu köklənmə vətənsevərlikdir, Azərbaycan əsgərinin gücünə, qüdrətinə inamdır, Ali Baş Komandanın əmri ilə döyüşən hərbi qulluqçularımıza vətəndaş xeyirduasıdır. Yurdumuzun hər qarışı mənim üçün əziz və doğmadır. Vətənə xidmət etmək, onu qorumaq bizim müqəddəs və şərəfli borcumuzdur. Bu borcu ləyaqətlə yerinə yetirdiyimə görə qürurluyam. Xalqımız qəhrəman, cəsur xalqdır. Zaman-zaman Vətən oğulları yadellilərlə mübarizələrdə böyük igidlik və qəhrəmanlıqlar göstəriblər. Qanları və canları bahasına qoynunda dünyaya göz açıb yaşadıqları torpaqları qoruyublar. Bu gün bizim damarlarımızdan döyüşlərdə böyük qəhrəmanlıq və hünər göstərmiş babalarımızın qanı axır. Biz də onların qəhrəmanlıqlarını təkrar edərək, erməni işğalçılarını torpaqlarımızdan təmizləyəcəyik. Cənab Prezident, Ulu Tanrı bu haqq yolunda köməyiniz olsun".

Saatlı şəhərindən Sevinc Əhədova: "Hörmətli cənab Prezident, Siz zamanın sınağından ləyaqətlə çıxmış bir lidersiniz. Bu sınaqlarda xalq Sizin arxanızda, Siz də xalqın önündə olmusunuz. Haqq mübarizəmizdə də qəsbkar, xəyanətkar erməni faşistləri zaman-zaman Sizin və ordumuzun layiqli cavablarını alıblar. Cənab Prezident, inanırıq ki, Sizin komandanlığınızla torpaqlarımızı mənfur düşməndən azad edəcək, bu mübarizədə qalib gələcəyik. Qadın olmağıma baxmayaraq, bu yolda Sizin əmrinizi gözləyirəm".

Bakı sakini Tuncay Şamilzadə: "Hörmətli cənab Prezident, Azərbaycan xalqı daim Sizinlə fəxr edib, edir və edəcək də. Mən bu məktubu Sizə göz yaşları içində yazıram. Allah Sizi qorusun. Siz tək deyilsiniz, son damla qanımıza qədər Sizinləyik. Var olun! Yaxşı ki, Sizin kimi Ali Baş Komandanımız, Prezidentimiz var. Allah Sizi bizə çox görməsin".

Bakının Xətai rayonunun sakini Aysel Hasanova: "Cənab Prezident, hər bir Azərbaycan vətəndaşı kimi, mən də Sizə güvənir, Sizə inanıram. Sizin siyasətinizi, ölkəmizin gələcəyi, vətəndaşlarımızın rifahı üçün qəbul etdiyiniz qərarları dəstəkləyirəm. İnşallah, işğal altında olan torpaqlarımız tezliklə azad olunacaq! Sizə güvənir, sizə arxalanırıq. Allah sizə və Vətənimizə kömək olsun".

Binəqədi rayonundan Şərqiyyə Salmanova: "Cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını, azərbaycansevərləri təbrik edirəm. Ordumuzun şücaəti, Sizin uğurlu rəhbərliyiniz bizi uğura aparır. İşğal altındakı bütün torpaqlarımızın tezliklə azad olunması xəbərini verməyinizi Uca Allahdan arzu edirəm. Mən bir Azərbaycan övladı olaraq daim Sizi dəstəkləyir, uğurlarınızın, uğurlarımızın davamlı olmasını arzu edirəm. Gözün aydın, Azərbaycan! Qarabağ Azərbaycandır!".

Şirvan şəhərinin sakini Leyla İbadovanın məktubunda deyilir: "Hörmətli cənab Prezident, Ali Baş Komandan, mən bir vətəndaş, bir müəllim olaraq son zamanlarda baş verən hadisələrlə bağlı atdığınız addımları bəyəndiyimizi və Sizi dəstəklədiyimizi bildirirəm. Biz başa düşürük ki, Siz Azərbaycan xalqının 30 illik nisgilinə son qoymaq üçün, şəhidlərimizin məzarlarında rahat uyuması, torpaqlarımızın işğaldan azad olunması və gələcək nəsillərin xoşbəxtliyi üçün bu addımı atmış, ölkədə hərbi vəziyyət elan edərək əks-hücum əmrini vermisiniz. Şərəfli mübarizəmizdə sözsüz ki, şəhidlərimiz də olacaq. Ancaq biz bilirik ki, azadlıq bəxş edilmir, qan bahasına alınır. Odur ki, düşmənin amansızlığı, müharibənin dəhşəti Azərbaycan xalqını qorxuda bilməz. Keçən gün ordumuzun apardığı hərbi əməliyyatlar nəticəsində Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, Aşağı Əbdürrəhmanlı, Yuxarı Əbdürrəhmanlı, kənd Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Böyük Mərcanlı kəndlərinin azad olunması və Murov yüksəkliyinin ordumuzun nəzarəti altına keçməsi xəbəri vətəndaşlar içərisində çox böyük sevinc və nikbinlik yaradıb.

# Prezidentə yazırlar: Azərbaycan vətəndaşları bir nəfər kimi Sizin, dövlətimizin, ordumuzun yanındadır!

İnanırıq ki, Sizin apardığınız düzgün siyasətiniz və Azərbaycan Ordusunun əzmi, şücaəti sayəsində düşmən məhv ediləcək, torpaqlarımız bütünlüklə azad olunacaq, şəhid analarının yanan qəlbinə su səpiləcək. Cənab Ali Baş Komandan, əmin olun ki, bu çətin və şərəfli işdə Azərbaycan xalqı yekdilliklə Sizin yanınızdadır".

Binəqədi rayonundan Xuraman Babayeva, Esmira Məmmədova, Maya İsayeva və Namiq Nağıyev yazırlar: "Hörmətli cənab Prezident, biz Sizinlə, ordumuzun şanlı qələbə əzmi ilə qürur duyuruq. İşğalçı düşmənə qarşı apardığınız düzgün siyasəti dəstəkləyir, Sizin arxanızda olduğumuzu bildiririk. Sizin rəhbərliyinizlə ordumuz uğurlu əməliyyatlarla xalqımızı sevindirdi. Bir neçə kəndin azad olunması xəbəri yeni qələbələrin carçısıdır. Sizin kimi Prezidentlə fəxr edirik. Qələbə bizimlədir".

Səbail rayonundan Aysel Zeynalova: "Hörmətli cənab Prezident, bu məktubu yazarkən həm kövrəlirəm, həm də fərəhlənirəm. Şükür ki, o gün gəldi çıxdı. Heydər babanın da ruhu indi şaddır. Vətənimiz uğrunda bütün şəhid olanların da ruhu indi sevinir. Təbrik edirəm Sizi, mənim müdrik Prezidentim. Bu zəfər bütün azərbaycanlılarımızın zəfəridir. Deyilməyə o qədər sözlər var ki, amma həyəcandan söz tapa bilmirəm. Siz ki, bizə bu sevinc gözyaşlarını yaşatdınız, Allah Sizi həmişə var eləsin. Heydər babanın bir zamanlar fərəhlə dediyi bu cümləni, indi də mən fərəhlə deyirəm: Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır!".

Yevlax şəhərindən Osman Xəlilov: "Möhtərəm Prezident, cənab Ali Baş Komandan, bir məcburi köçkün olaraq özümə borc bilirəm ki, Sizə təşəkkürümü və minnətdarlığımı bildirəm. Azərbaycanın bütün vətəndaşları kimi, mən də hər zaman Sizin apardığınız siyasətə inanıb Sizi dəstəkləmişəm. Sizin indi də Qarabağın azad olunması uğrunda göstərdiyiniz əzmi və mübarizliyi görüb susmaq mümkün deyil. Mən inanıram ki, işğal altındakı bütün torpaqlarımız yaxın vaxtlarda Sizin rəhbərliyinizlə azad ediləcək və biz məcburi köçkünlər öz doğma yurdlarımıza qayıdacağıq. Bir məcburi köçkün gənc kimi əminəm ki, o gün uzaqda deyil. Biz gənclər Sizi sevirik, Sizin daxili və xarici siyasətinizi dəstəkləyirik. Vətənimizin uğrunda döyüşməyə hər an hazırıq, hörmətli cənab Prezident. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlarımız var. Allah şəhidlərimizə rəhmət eləsin. İnşallah, onların qanı yerdə qalmayacaqdır. Allah Sizi və əsgərlərimizi qorusun".

Türkiyənin Adana şəhərindən Efe Hüsem yazır: "Hörmətli cənab Prezident, mən Türkiyənin Adana şəhərində həkim işləyirəm. Doğma Vətən, qardaş ölkə Azərbaycanda Tibb Universitetində təhsil almışam. Erməni işğalçıları ilə cəbhədə vuruşan qardaşlarıma lazım olarsa ya həkim kimi, ya da bacardığım başqa iş üzrə xidmət göstərməyə hər an hazıram. Şübhəsiz, çağırış etsəniz, ən qısa zamanda gələrəm. Ürəyim Sizinlədir. Allah yar və yardımçınız olsun".

İstanbul şəhərindən Amanat Aydın: "Hörmətli cənab Prezident, Azərbaycan Ordusunun düşmənə qarşı lazımi müdafiə tədbirlərini ən yüksək səviyyədə təşkil etdiyini və əks-hücumla ermənilərə sarsıdıcı zərbələr endirdiyini sosial mediadan öyrəndim. Haqsızlığı özünə məslək bilən, qardaş ölkəmin insanlarına qəsd edən, adını belə çəkməyə dilim gəlməyən aciz topluya qarşı təbii ki, gücünüzün yetəcəyini atalarımızdan gələn qandan bilirəm. Ancaq ehtiyac olarsa, qardaş ölkəmin bu mübarizəsində hər zaman yanınızdayam. Türk milləti olaraq birimizə olunan haqsızlıq hamımıza edilən haqsızlıqdır. Hər zaman qardaş ölkəmin yanında olacağımı bildirir, böyüklərin əllərindən, kiçiklərin gözlərindən öpürəm".

Ankara şəhərindən Suat Muratoğlu: "Hörmətli cənab Prezident. Mən Türkiyə vətəndaşıyam. Xaraktersiz ermənilərin əməllərini şiddətlə qınayıram. Davanız davam, yolunuz yolumdur. Azərbaycan mənim də ölkəmdir. Lazım gələrsə, Sizin ölkəniz üçün də vuruşmağa, şəhid olmağa tərəddüd etmərəm. Dualarım Sizinlədir. Ehtiyac olarsa, sevə-sevə cəbhəyə getməyə və qardaşlarımla birlikdə vuruşmağa hazıram. Allah yardımçısınız olsun. Şəhidlərimizə Allahdan rəhmət, yaralılarımıza da qısa zamanda şəfa tapmalarını diləyirəm".

İstanbul şəhərindən Hakan Yıldız yazır: "Hörmətli cənab Prezident, qardaş ölkəmizə və bütün vətəndaşlarınıza mənim və ətrafımda olan insanların səmimi salamlarını çatdıraraq haqq işinizdə uğurlar arzulayıram. Əziz Prezident, mən və ətrafımda olan çoxsaylı insanlar rəhbərliyinizlə qazanılan rəşadətli qələbə sevincini Sizinlə bölüşmək üçün yanınızda olmaqdan şərəf duyarıq. Azərbaycan bizim ikinci Vətənimizdir. Sizi öz rəhbərimiz kimi sevir, qərarlarınızı dəstəkləyirik. Hamımızın duaları qələbə qazanmağınız üçündür".

Tekirdağ şəhərindən Özdoğan Məhəmməd və Satı Levent yazırlar: "Hörmətli cənab Prezident, bu çətin günlərdə Sizə yaxşı və sağlam çalışmalar və uğurlar diləyirəm. Mənim 24 yaşım var. Vətənin bu çətin günündə azərbaycanlı qardaşlarımın yanında olmaq istəyirəm. Hər hansı bir əmriniz olarsa canla-başla yerinə yetirməyə hazıram. Cənab Ali Baş Komandan, ermənilərə qarşı hərbi əməliyyatların iştirakçısı olmaqdan qürur duyardım. Əmrinizi gözləyirəm".

Almaniyanın Dortmund şəhərindən Halil Deniz Kalakli yazır: "Hörmətli cənab Prezident, mən Almaniyada yaşayan türk vətəndaşıyam. Azərbaycanın Ermənistanla yaşadığı problemi yaxından izləyirəm. Burada bir qərar tuta bilmirəm. Hazırda böyük narahatlıq içərisində Azərbaycan Silahlı Qüvvələrinin zəfər çalması üçün dualar edirik. Türkiyədə yaşadığım dövrdə Türk Özəl Qüvvələrində əsgərlik etmişəm. İcazənizlə Azərbaycana gəlib Sizlərlə bərabər ermənilərə qarşı vuruşmaq istəyirəm. Burada bir çox türk qardaşlarımız da Azərbaycana gəlib qardaşlarımıza dəstək vermək istəyirlər. Eyni zamanda, Türkiyədə yaşayan həmvətənlərim də eyni duyğu və düşüncə içərisindədirlər. Artıq Ermənistana sərt bir sillə vurmağın zamanı gəlmişdir. Ermənilər türkün əsl gücünü görməlidirlər. Birlikdə onların üzərinə getməliyik. Hörmətli cənab Prezident, əmr etdiyiniz anda yanınızda olacağımı bilməyinizi istəyirəm. Sizi və bütün azərbaycanlı qardaşlarımızı Allaha əmanət edirəm".

Şanlıurfa şəhərindən Babacan Eyüp: "Hörmətli cənab Prezident, ilk növbədə, Sizə salamlarımı çatdırır, ehtiramımı bildirirəm. Erməni işğalçıları ilə apardığınız mübarizədə Türkiyə xalqı olaraq, sonuna qədər yanınızda olduğumuzu, dualarımızın Sizinlə birlikdə olduğunu bilməyinizi istəyirik. Rəbbim qardaş Azərbaycanın yardımçısı olsun. Hər zaman can qardaşlarımızın yanındayıq. Tutduğunuz bu haqq yolunda Sizə zəfər arzulayıram".

Pakistanın Multan şəhərindən Məsud Əhməd: "Möhtərəm cənab Prezident, mən ölkənizlə dost və qardaş münasibətində olan Pakistanın vətəndaşı olaraq ölkəmin Sizin və böyük xalqınızın yanında olduğunu, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanı tam qəlbimizlə dəstəklədiyimizi bildirməkdən şərəf duyuram. Dağlıq Qarabağı və onu əhatə edən 7 rayonu işğaldan azad etmək üçün başladığınız haqq işində Türkiyə xalqı ilə yanaşı, bizim də ürəyimiz Azərbaycan xalqı ilə birlikdə döyünür. Allahdan müqəddəs niyyətinizə çatmaq üçün xalqınıza kömək olmasını, ölkənizin daim çiçəklənmə və tərəqqi yolunda inkişaf etməsini arzulayıram. Allahın mərhəməti daim üzərinizdə olsun. Xeyirli dualarımız Sizlərdən əksik deyil".

Ukraynanın Kropivnitski şəhərindən Qorovaya Natalya Vasilyevna: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Ukrayna Azərbaycanlıları Konqresində tanışım var. Onun vasitəsilə Azərbaycanı və azərbaycanlıları daha yaxından tanımışam. Bu məktubu yazmağıma da əsas səbəb Azərbaycana və azərbaycanlılara olan məhəbbətimdir. Razılığınız olarsa, Azərbaycanın işğal olunmuş ərazilərinin erməni barbarlarından azad edilməsində biz də könüllü kimi iştirak etməyə hazırıq. Sizin əmrinizi gözləyirik və Azərbaycana gəlməyə hər zaman hazırıq. Biz Sizə güvənirik".

## Dövlət Xidməti: Azərbaycanın hər bir vətəndaşı səfərbərlik çağırışını böyük ruh yüksəkliyi ilə qarşılayıb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin "Azərbaycan Respublikasında qismən səfərbərlik elan edilməsi haqqında" 2020-ci il 28 sentyabr tarixli Sərəncamının icrası ilə bağlı təsdiq edilmiş plana uyğun olaraq, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli struktur bölmələrində hərbi vəzifəlilərin səfərbərlik üzrə yola salınmasına başlanılıb. Xidmətdən AZƏRTAC-a bildiriblər ki, qismən səfərbərliyə cəlb edilmiş Azərbaycan vətəndaşları ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə iştirak etmək üçün böyük ruh yüksəkliyi və coşqu ilə qurumun qeydiyyatda olduqları idarə, şöbə və bölmələrinə gəlirlər.

Hərbi vəzifəlilərin, onları yola salan valideyn və yaxınlarının ruh yüksəkliyi bir daha göstərir ki, xalqımız işğal altındakı ərazilərimizi düşməndən azad etmək üçün ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlarla qürur duyur və ümumi qələbəmiz naminə nəbzi Vətən ilə vuran Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin Sərəncamını təntənə ilə qarşılayır.

Çoxmillətli ölkəmizdə hər kəs Vətənin müdafiəsini qanunla müəyyən edilmiş vəzifədən əlavə özünə mənəvi borc bilir. Bu gün hər bir çağırışçının dilində əsas şüar bunlardır: "Biz birlikdə güclüyük!", "Biz zəfər çalacağıq!". Çünki bizim işimiz haqq işidir.

"Bildiririk ki, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən ehtiyatda olan birinci dərəcəli hərbi vəzifəlilər əsgərlər, matroslar, çavuşlar, gizirlər və miçmanlar 35 yaş, zabitlər isə hərbi rütbəsindən asılı olaraq 50 və daha yuxarı yaş həddində Azərbaycan Ordusunun komplektləşdirilməsinə cəlb edilir, hərbi vəzifəlilərin hərbi hissələrə təhvil verilməsini təmin etmək üçün müvafiq tədbirlər uğurla davam etdirilir", - deyə Dövlət Xidmətinin məlumatında qeyd olunub.

## Ukrayna vətəndaşı Prezidentə yazır: "Azərbaycanın işğal olunmuş ərazilərinin erməni barbarlarından azad edilməsində biz də iştirak etməyə hazırıq"



Razılığınız olarsa, Azərbaycanın işğal olunmuş ərazilərinin erməni barbarlarından azad edilməsində biz də könüllü kimi iştirak etməyə hazırıq. AZƏRTAC xəbər verir ki, bu sözləri Ukraynanın Kropivnitski şəhərindən Qorovaya Natalya Vasilyevna Azərbaycan Prezidenti İlham Əliyevə yazdığı məktubda qeyd edib.

Məktubda deyilir: "Hörmətli Prezident, cənab Ali Baş Komandan, Ukrayna Azərbaycanlıları Konqresində tanışım var. Onun vasitəsilə Azərbaycanı və azərbaycanlıları daha yaxından tanımışam. Bu məktubu yazmağıma da əsas səbəb Azərbaycana və azərbaycanlılara olan məhəbbətimdir. Razılığınız olarsa, Azərbaycanın işğal olunmuş ərazilərinin erməni barbarlarından azad edilməsində biz də könüllü kimi iştirak etməyə hazırıq. Sizin əmrinizi gözləyirik və Azərbaycana gəlməyə hər zaman hazırıq. Biz Sizə güvənirik".

# Düşmən Azərbaycan Ordusunun gücü qarşısında acizdir

*Milli Məclisin deputatı Cavid Osmanovun yap.org.az-a müsahibəsi*

***- Cavid müəllim, bugünlərdə işğalçı Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribat etdi, yaşayış məntəqələri, dinc sakinlər ağır texnikalardan atəşə tutuldu. Azərbaycan Ordusu bu təxribata cavab olaraq əks-hücum əməliyyatı həyata keçirir. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycanın tarixi torpaqlarında yaradılmış Ermənistan yüz ildən artıqdır ki, hər vəchlə öz ərazilərini Azərbaycan torpaqları hesabına genişləndirmək üçün cəhdlər edir. Tarixi Azərbaycan əraziləri olan Dağlıq Qarabağın və ətraf rayonların işğalı da bu çirkin və beynəlxalq hüquqa zidd niyyətlərdən irəli gəlir. Ermənistan Azərbaycan torpaqlarının işğalını davam etdirir.

Azərbaycan xalqı işğal faktı ilə heç zaman barışmayıb və barışmayacaq. Ermənistanın mənfur işğalçılıq siyasəti nəticəsində Azərbaycanda bir milyondan çox insan öz doğma torpaqlarında yaşamaq hüququndan məhrum edilib. Otuz ilə yaxındır davam edən bu vəziyyətdə Ermənistan nə beynəlxalq hüququ, nə də BMT-nin qətnamələrinin tələblərini saya salır, öz əhalisinin belə acınacaqlı durumda yaşamasını nəzərə almır.

Bölgədə sabitliyə ciddi təhlükə olan bu ölkə Azərbaycanın illərdir davam edən xəbərdarlıqlarından nəticə çıxarmadığı, məsələnin danışıqlarla həllinə hər vəchlə mane olduğu, eləcə də hərbi təxribatlarını davam etdirdiyi üçün ordumuz işğalçıya cavab vermək hüququndan istifadə edir. Dünyanın bir sıra ölkələri və beynəlxalq qurumlar da dəfələrlə bəyan edib ki, Ermənistanın işğalçılıq siyasətinə son qoyulmalı, ilk növbədə işğalçı hərbi qüvvələr torpaqlarımızdan çıxarılmalı, dinc insanlar, məcburi köçkünlər öz yurdlarına qayıtmalıdırlar. Hazırda ölkəmiz müharibə şəraitindədir. Ermənistan Azərbaycan ordusunun cəbhə zonasında yerləşən mövqelərini, yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif artilleriya qurğularından intensiv atəşə tutmaqla növbəti dəfə qeyri-humanist mahiyyətini, insanlığa qarşı olduğunu sübut edir. Mülki obyektlərin və əhalinin vurulması Ermənistanın Azərbaycana qarşı dünya tarixində görünməmiş üsullardan istifadə etdiyini bir daha ortaya qoyur.



***- Ermənistan hakimiyyəti bundan əvvəl də bir sıra təxribatlara əl atmışdı. O zaman da ordumuz tərəfindən layiqli cavabını almışdı...***

- Bəli, bu ilin iyul ayında Azərbaycan və Ermənistanın dövlət sərhədinin Tovuz rayonu istiqamətində də qanlı toqquşmalar baş vermişdi. Ermənistanın məkrli və çirkin təxribatının qarşısı ordumuzun qüdrəti və şücaəti, qəhrəman oğullarımızın qanı bahasına qətiyyətlə alınıb və bundan sonra da alınacaq. Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təcavüzünə baxmayaraq ordumuz hər zaman öz qüdrətinə arxalanır və əks-hücum əməliyyatı ilə düşmən təxribatına layiqli cavab verir. Düşmən isə Azərbaycan Ordusunun gücü qarşısında acizdir. Azərbaycan Ordusu xalqımızın qürur, dövlətimizin güvənc mənbəyidir. Hazırda Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasındadır. Ordu quruculuğu istiqamətində həyata keçirilən sistemli və məqsədyönlü tədbirlərin nəticəsi kimi, Azərbaycan güclü orduya, təkmilləşmiş hərbi sistemə və inkişaf etmiş müdafiə sənayesinə malikdir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, dövlətimizin başçısı İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində dünyanın inkişaf etmiş orduları sırasında qərarlaşan güclü ordumuz var. Biz əminik ki, ordumuz Ali Baş Komandanın əmri ilə işğal altında olan bütün Azərbaycan torpaqlarını azad etmək gücündədir. Yüksək döyüş qabiliyyəti, mənəvi-psixoloji hazırlığı və vətənpərvərliyi ilə seçilən Azərbaycan Ordusu tezliklə döyüş meydanında qəti və son sözünü deyəcək. Ümidvaram, irəliyə doğru gedən zəfər yürüşümüzün qarşısında erməni faşistləri bu dəfə də duruş gətirə bilməyəcək. Buna görə də istər pandemiya ilə mübarizədə, istərsə də cəbhədə düşmənə qarşı milli birlik, həmrəylik, güclü milli iradə nümayiş etdirmək zəruridir. Hər birimiz məsuliyyətlə davranmalı, nizam-intizama riayət etməli, cəmiyyətimizdəki mövcud təhlükəsizliyi və sabitliyi qoruyub saxlamaq üçün bütün səylərimizi səfərbər etməliyik. Güclü Azərbaycan Ordusu düşmənin istənilən təxribatına, həmləsinə layiqli cavab vermək iqtidarındadır. Azərbaycan Ordusu yüksək səviyyəli texnikaya, döyüş qabiliyyətinə malikdir və torpaqlarımızı işğaldan azad etməyə hər cəhətdən hazırdır. 2016-cı ilin Aprel döyüşləri və bu ilin iyul ayında Azərbaycan-Ermənistan sərhədində baş verən hadisələr bunu bir daha təsdiq edir.

***- Təəssüf ki, beynəlxalq ictimaiyyət Ermənistanın təcavüzkar siyasətinə qarşı indiyə kimi sərt tədbirlər görməyib. Vəziyyətin bu həddə çatmasında beynəlxalq birliyin işğalçı Ermənistana təzyiqlər göztərməməsi nə dərəcədə rol oynayır?***

- Dünya birliyi Ermənistanın illərdir davam edən işğalçılıq siyasətinə, Azərbaycana qarşı qəbulolunmaz hücum cəhdlərinə qarşı çıxmalıdır. İşğalçı Ermənistana imkan verilməməlidir ki, beynəlxalq hüquq normaları ayaqlar altına atsın. Əks halda, məkrli erməni siyasəti Ermənistan üçün acı nəticələrə səbəb olacaq, regionun inkişafını və beynəlxalq əməkdaşlıq imkanlarını məhdudlaşdıracaq. Bundan sonra baş verə biləcək hadisələrə görə işğalçı Ermənistan rəhbərliyi məsuliyyət daşıdığını anlamalı, öz ölkəsini və xalqını daha böyük fəlakətlərdən xilas üçün çalışmalıdır.

Azərbaycan güclü dövlətdir, əldə olunmuş təhlükəsizlik, əmin-amanlıq, sabitlik, inkişaf və sosial rifah müstəqillik dövrümüzün ən böyük nailiyyətləridir. Biz xalqımızın əyilməz iradəsi, uzun illərin əziyyəti və zəhməti, şəhidlərimizin qanı bahasına qazandığımız uğurları hər vəchlə qorumalı, inkişaf etdirməli və istənilən pozuculuğa qarşı öz vətəndaş mövqeyimizi nümayiş etdirməliyik. Əminəm ki, erməni işğalçıları üzərində tezliklə qəti qələbə çalacağıq. Ölkə Prezidentinin xalq müraciətində dediyi kimi, biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. İnanıram ki, Ali Baş Komandanımız cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan bütün torpaqlarımız azad ediləcək, xalqımız tezliklə qələbəni qeyd edəcək, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq!

## Ukraynalı politoloq: "Ermənistanın militarist hərəkətləri münaqişənin kəskinləşməsinə səbəb olub"

2020-ci ilin yayından bəri Ermənistan tərəfindən müxtəlif növ militarist hərəkətlər güclənib və bu da təbii olaraq münaqişənin kəskinləşməsinə səbəb olub. Təəssüf ki, bu vəziyyətə dünya birliyi lazımi reaksiya vermədi ki, münaqişənin artmasının qarşısı alınsın. AZƏRTAC xəbər verir ki, bunu Ukraynanın "Doktrina" Siyasi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Yaroslav Bojko deyib.

Yaroslav Bojko bildirib ki, Azərbaycan ərazi bütövlüyünün bərpası istiqamətində kursu ciddi şəkildə davam etdirmək niyyətindədir, baxmayaraq ki, bu, uzun bir prosesdir. Politoloq işğal olunmuş ərazilərin geri qaytarılmasının, ərazi bütövlüyünün bərpasının, sərhədlərin toxunulmazlığının və mövcud dünya düzəninin qorunmasının önəmini qeyd edib.

## Müdafiə Nazirliyi: "Ermənistan ordusunun alay komandiri ağır yaralanıb"



Atyom Poğosyan

Ermənistan ordusunun alay komandiri ağır yaralanıb. Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəisi, polkovnik Vaqif Dərgahlı deyib. V.Dərgahlı bildirib ki, Azərbaycan Ordusunun keçirdiyi döyüş əməliyyatı nəticəsində Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının 9-cu alayının komandiri polkovnik Artyom Poqosyan ağır yaralanıb.

## Anar Eyvazov: "Bölmələrimiz yüksək peşəkarlıq göstərərək bütün cəbhəboyu sürətli əks-hücum əməliyyatını davam etdirir"





Son döyüşlər bir daha göstərir ki, Ermənistan ordusunun məğlubedilməzliyi barədə yaradılan miflər yalandır. Bölmələrimiz yüksək peşəkarlıq göstərərək, ən müasir silah və zirehli texnikanın imkan və qabiliyyətlərindən faydalanaraq bütün cəbhəboyu sürətli əks-hücum əməliyyatını davam etdirir. AZƏRTAC xəbər verir ki, bunu Müdafiə Nazirliyinin mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov sentyabrın 29-da keçirilən axşam brifinqində deyib.

A.Eyvazov bildirib ki, müvəqqəti işğal altında olan Cəbrayıl rayonu istiqamətində yerləşdirilən Ermənistan ordusunun 18-ci motoatıcı diviziyasının artilleriya rəisi polkovnik Karen Babayan Azərbaycan Ordusunun cəza tədbirləri nəticəsində məhv edilib. Ermənistan ordusunun Eçmiədzin rayonunda yerləşən və işğal edilmiş ərazilərimizdə gedən döyüşlərə cəlb olunan 61-ci əlahiddə mühəndis alayının 13516 saylı hərbi hissəsinin komandiri Spartak Köçəryan da bu gün məhv edilib. Bundan başqa, düşmən ordusunun 18-ci motoatıcı diviziyasının 9-cu alayının komandiri polkovnik Artyom Poqosyan ağır yaralanıb.

Ağdərə rayonunun işğal altında olan Göyarx kəndi yaxınlığındakı yüksəklik ətrafında gedən döyüşlərdə bölmələrimiz daha bir düşmən tankını məhv edib. Xocavənd rayonunun Hadrut yaşayış məntəqəsi istiqamətində Ermənistan ordusunun 1-ci alayının 3-cü taborunun komandamüşahidə məntəqəsi dəqiq atəşlə darmadağın olunub.

Həmçinin Füzuli rayonunun işğal altında olan Aşağı Veysəlli kəndi istiqamətindən üzbəüz mövqelərimizə basqın etməyə cəhd göstərən Ermənistan ordusunun hərəkətinin qarşısı bölmələrimiz tərəfindən qətiyyətlə alınıb. Düşmən geri çəkilməyə məcbur olub. Geri çəkilərkən məhv edilmiş erməni əsgərlərinin meyitləri döyüş meydanında qalıb. Bu informasiya ilə bağlı foto və videomateriallar ilə Müdafiə Nazirliyinin rəsmi internet səhifəsində tanış olmaq mümkündür.

Müdafiə Nazirliyinin mətbuat katibi deyib ki, Azərbaycan Ordusunun genişmiqyaslı döyüş əməliyyatı nəticəsində Ermənistan ordusunun Madagizdəki alayında tamamilə ruh düşkünlüyü yaranıb, şəxsi heyətdə ölüm qorxusu başlayıb. Şəxsi heyət təşviş içindədir. Dəstək məqsədilə yeni gələn ehtiyat qüvvələri də daxil olmaqla bir çox hərbçi döyüşə girməkdən imtina edir və əməliyyat rayonunu tərk edirlər.

Əldə etdiyimiz kəşfiyyat məlumatına əsasən, Yerevanın hava məkanını müdafiə edən S-300 tipli zenit-raket kompleksləri döyüş növbətçiliyindən çıxarılaraq işğal olunmuş ərazilərimiz istiqamətində hərəkət edir. Bildiririk ki, onları da Ordumuz tərəfindən Dağlıq Qarabağda Ermənistan ordusunun məhv edilən digər döyüş texnikalarının aqibəti gözləyir.

Ermənistan tərəfindən Azərbaycana qarşı başladılan genişmiqyaslı hücumun ilk saatlarından etibarən Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin bütün hərbi tibbi heyəti gücləndirilmiş iş rejimində fasiləsiz tibbi xidmət göstərir. Döyüşlərin getdiyi bütün istiqamətlərdə mobil səhra cərrahiyyə hospitalları fəaliyyətdədir və tibb müəssisələri peşəkar həkim kadrları ilə tam komplektləşdirilib. Hərbi tibb müəssisələrinə daxil olan yaralılar arasında həyatını itirən hərbi qulluqçumuz yoxdur. Bütün imkanlarımız səfərbər olunub və yaralı hərbi qulluqçuların tezliklə müalicə edilərək sağlamlıqlarına qovuşmaları üçün hərbi tibb personalı var qüvvəsi ilə çalışır.

"Azərbaycan Ordusunda tibbi təminat, təchizat və qan komponentləri ehtiyatları ilə bağlı heç bir problem yoxdur. Ordumuzun qan və qan komponentlərinə tələbatı Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Qan Bankı bölməsi tərəfindən tam təmin edilir və hərbi tibb müəssisələrində bütün qan qruplarından ehtiyatlar mövcuddur. Hərbi qulluqçuların valideynlərini narahat edən məsələlərlə bağlı müraciətləri qəbul etmək məqsədilə Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin nəzdində sutka ərzində fasiləsiz fəaliyyət göstərən qaynar telefon xətti açılıb. Vətəndaşlar (012) 406-68-58, (012) 406-68-84, (012) 406-72-52, (012) 406-72-77 nömrəli telefonlara zəng edərək onları maraqlandıran suallarla bağlı müraciət edə bilərlər. Eyni zamanda, vətəndaşlardan telefon xətlərinin həddən artıq yüklənməməsi və normal qaydada fəaliyyət göstərməsi məqsədilə ehtiyac olmadığı halda zəng etməmələrini xahiş edirik", - deyə polkovnik-leytenant Anar Eyvazov bildirib.

# İraq mediasında PKK terrorçularının Ermənistana göndərilməsi barədə

# ŞOK FAKTLAR!

## “İraq Kürdüstanında yüzlərlə gənc müəmmalı şəkildə itkin düşür”

***“İraq vətəndaşlarının Azərbaycana qarşı müharibəyə cəlb edilməsi qəbuledilməzdir”. İraqın Əl-Rasid (https://al-rased.news) internet qəzetində bu başlıqla dərc olunan məqalədə Ermənistan-Azərbaycan münaqişəsi və İraq kürdlərinin PKK tərkibində Ermənistana göndərilməsindən bəhs olunur. Baş redaktor Cəfər əl-Musəvinin müəllifi olduğu məqalə İraqda böyük əks-səda doğurub.***

Yazıda qeyd olunur ki, İraq və iraqlılar terror təşkilatları ilə döyüşlərdən, eləcə də bəzi ölkələrin xüsusi xidmətləri vasitəsilə terror təşkilatları tərəfindən İraqa gətirilən əcnəbi terrorçulardan çox əziyyət çəkib. İndi isə iraqlılar dost bir ölkəyə qarşı istifadə olunur. Müəllif sual edir ki, İraq hökumətindən maaş alan, könüllü birliklərdə qeydiyyatda olan insanların başqa bir ölkədə istifadəsi nə qədər doğrudur?

Bildirilir ki, son günlər xarici mediada, xüsusən də Azərbaycan yerli mətbuatında İraq və Suriyadan PKK terrorçularının, həmçinin yezidilərin Ermənistana gətirilməsi və daha sonra Ermənistan tərəfindən işğal olunmuş Qarabağdakı Azərbaycan torpaqlarına yerləşdirilməsi barədə məlumatlar yayılır. Bu prosesdə erməni diplomatları yaxından iştirak edir.

Məqalədə deyilir ki, iyulda Azərbaycan-Ermənistan sərhədlərində başlayan gərginliyin fonunda İraq vətəndaşlarının Qarabağdakı münaqişəyə cəlb olunması barədə məlumatlar ciddi narahatlıq doğurur.

**1992-ci ilin fevralında erməni qüvvələri Xocalı şəhərini ələ keçirərək bir gecədə 613 müsəlman azərbaycanlı qadın, qoca, uşaq da daxil olmaqla amansızcasına qətlə yetirilib**

Daha sonra müəllif Qarabağ münaqişəsi və Ermənistan-Azərbaycan müharibəsi haqda arayış verir. Qeyd edir ki, 90-cı illərdə qızışan müharibədə Ermənistan tərəfdən əsasən Livan, Suriya, Amerika və sair kimi ölkələrdən erməni silahlı terror təşkilatları - ASALA, Daşnaksütyun, Hnçaq - Qarabağa gedərək Azərbaycana qarşı müharibədə iştirak edib. Hələ SSRİ kəşfiyyatının dəstək verdiyi ermənilər 90-cı illərin əvvəllərində Azərbaycana məxsus Qarabağ vilayəti və ətrafında daha 7 bölgəni işğal edib. 1992-ci ilin fevralında erməni qüvvələri Xocalı şəhərini ələ keçirərək bir gecədə 613 müsəlman azərbaycanlı qadın, qoca, uşaq da daxil olmaqla amansızcasına qətlə yetirilib.

Həmçinin məqalədə PKK-nın yaranması və Yaxın Şərqdə “soyuq müharibə” dövründə erməni və kürd terror təşkilatları arasında əlaqələrin olduğu, SSRİ-nin vasitəsilə kürdlərin silahlandırıldığı qeyd olunub. Məqalədə qeyd olunur ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (CİA) 11.08.1978-ci ildə yayımlanan “kürd və erməni militanları” ilə bağlı məruzəsində erməni terror təşkilatları və PKK arasında əlaqələrlə bağlı ətraflı məlumatlar yer alıb. Bu hesabatda erməni terror təşkilatları ilə PKK arasında əməkdaşlığın kökü ötən əsrin 70-80-ci illərinə təsadüf etdiyi, 1975-ci ildə başlayan Livan vətəndaş müharibəsi zamanı yaradılan ASALA (Armenian Secret Army for the Liberation of Armenia) uzun illər kürd terror təşkilatları ilə yaxın əməkdaşlıq etdiyi, eyni zamanda bu əlaqələrin bir tərəfdən Səddama dəstək verən digər tərəfdən solçu terror təşkilatlarını Yaxın Şərqdə himayə edən Sovet kəşfiyyat orqanı KQB həyata keçirildiyi vurğulanır.

Qeyd olunur ki, ASALA və PKK-nin ilk birgə toplantı 1980-ci ildə Livanın Sidon (Sayda) şəhərində keçirilib. Müəllif yazır ki, həmin vaxt hər iki təşkilatın əsas hədəfi Türkiyə olduğu üçün o zaman birgə əməkdaşlıq ediblər. Lakin ötən əsrin 80-ci illərində ASALA formal olaraq fəaliyyətini dayandırdı və Yaxın Şərqdəki üzvlərinin bir qismi sovet KQB-nin rəhbərliyi altında PKK sıralarına qatıldı.

### Kürdləri qətl edən ermənilərlə PKK-nıbir araya gətirən müəmmalar

Məqalədə qeyd olunur ki, BMT TŞ-nin 1993-cü ildə işğal olunmuş bütün Azərbaycan torpaqlarını azad edilməsi ilə bağlı 4 qətnamə qəbul etsə də, Ermənistan bu qətnamələrə əməl etməyib. Eyni zamanda 57 müsəlman ölkəsini birləşdirən İslam Əməkdaşlıq Təşkilatı dəfələrlə Ermənistanı işğal olunmuş Azərbaycan torpaqlarından geri çəkilməyə çağırsa da, Ermənistan bütün bu beynəlxalq tələblərə məhəl qoymayıb. Hətta bəzi ərəb və islam ölkələrindəki erməni lobbiləri vasitəsilə müsəlman ölkələrinin dəstəyini almağa çalışıb və çalışır.

Müəllif erməni və kürd terrorçularının əməkdaşlığının hazırda da Suriyada davam etdiyini, ötən il “Suriya Demokratik Qüvvələri” adlı koalisiyanın tərkibində ermənilərin Nubar Ozonyan adlı qruplaşmasının yaradıldığını xatırladır. N.Ozanyan ASALA üzvü olub və yeri yaranan briqadanın əsas məqsədi kürdləri ermənilər tərəfindən işğal olunmuş Qarabağda təlim keçməyə göndərməkdən ibarətdir.

Həmçinin yazı müəllifi son 20 ildə Ermənistanın Yaxın Şərqin bir çox ölkələrində münaqişə bölgələrində əziyyət çəkən erməniləri və kürdləri əsasən işğal altında olan Dağlıq Qarabağ bölgəsinə köçürdüyünü qeyd edir. Həmçinin avqustun əvvəlində Beyrut partlayışından dərhal sonra 800-ə qədər Livan ermənisinin Ermənistana köçürüldüyü ilə bağlı İrəvan rəsmilərinin açıqlamasını xatırladıb. Və əlavə edir ki, Livandan gətirilən ermənilərin arasında çoxlu sayda ASALA üzvü olduğu haqda informasiyalar var.

Yazıda həmçinin Ermənistanın kürdləri himayə etməsi ilə bağlı açıqlamalarının əsassız olduğu, 90-cı illərdə Azərbaycanla müharibə zamanı 5 mindən çox etnik kürdün öldürüldüyü və Ermənistandan deportasiya olunduğu xatırladılır və Kəlbəcərdə bir neçə, Laçında 12 kürd kəndinin dağıdıldığı, əhalisinin isə didərgin düşdüyü, Ermənistanda əhalinin 1 faizə qədərini etnik yezidilərin təşkil etdiyi xatırladılır.

Məqalədə deyilir ki, son illərdə güclənən Azərbaycan işğal olunmuş torpaqlarını azad etmək üçün hərbi əməliyyatlara hazırlaşır və Türkiyə bu məsələdə Azərbaycana dəstək verir. Ermənistan isə Türkiyə amilindən istifadə edərək regiondakı anti-Türkiyə qüvvələrini öz tərəfinə cəlb etməyə çalışır. Bu məqsədlə də Ermənistanın İraqdakı səfiri kürd terror qrupları ilə əlaqə quraraq İraqdakı terrorçu kürdlərin Qarabağa köçürülməsini təşkil edir.

Müəllif qeyd edir ki, İraq vətəndaşlarının Azərbaycana qarşı Ermənistan tərəfdən müsəlman Azərbaycan xalqına qarşı istifadə olunması İraq xalqı və İraq-Azərbaycan dostluğu adına ləkədir.

Müəllif yazının sonunda hökumət orqanlarına müraciət edərək Ermənistan səfirinin İraqda diplomatik normalara zidd fəaliyyətinin araşdırılmasına və faktlar təsdiqlənərsə ciddi tədbirlər görülməsinə çağırış edir

İkincisi, İraq vətəndaşlarının beynəlxalq arenada muzdlu terrorçuların qanlı hərəkətlərindən əziyyət çəkən Azərbaycan mülki vətəndaşlarına qarşı mübarizəyə cəlb edilməsi İraqın xarici siyasətinin mövqeyini zəiflədə bilər.

Üçüncüsü, Azərbaycan İraqla tarixi, mədəni, dini və siyasi və iqtisadi əlaqələri olan bir ölkədir. Azərbaycan beynəlxalq forumlarda hər zaman İraqa dəstək olub. Hər il on minlərlə azərbaycanlı İraqdakı əksəriyyəti şiə olan müqəddəs ziyarətgahları ziyarət edir və Ərbəin yürüşlərində iştirak edirlər. İqtisadi cəhətdən güclü olan Azərbaycan İraqla və hətta Şimali İraqdakı Kürdüstan bölgəsi ilə əlamətdar ticarət əlaqələrə malikdir və İraq vətəndaşlarının Azərbaycana qarşı müharibədə iştirakı bu münasibətlərə ciddi ziyan vura bilər.

Nəhayət, Şimali İraqdakı Kürd administrasiyası rəhbərliyinin PKK-nın İraqdakı fəaliyyətini qınayıb. Bütün bunların fonunda İraq vətəndaşlarının xüsusən də kürdlərin kompakt yaşadığı Sincar bölgəsində yüzlərlə kürd gəncinin yoxa çıxaraq itkin düşməsi ilə bağlı rəsmi məlumatların yayılması ciddi siqnaldır. Artıq itkin düşən yezidi və kürd gənclərinin ailələri PKK-ya qarşı təhlükəsizlik və məhkəmə orqanlarına şikayət göndərirlər, çünki bu, Türkiyənin İraqa yenidən təzyiq göstərməsi və Ankaranın Şimali İraqdakı hərbi əməliyyatlarını davam etdirməyə təşviq etmək üçün bir bəhanə ola bilər.




Müəllif yazının sonunda hökumət orqanlarına müraciət edərək Ermənistan səfirinin İraqda diplomatik normalara zidd fəaliyyətinin araşdırılmasına və faktlar təsdiqlənərsə ciddi tədbirlər görülməsinə çağırış edir.

Müəllif qeyd edir ki, uzun illərdir terror və işğaldan əziyyət çəkən müsəlman, xristian, yezidilər və digər dini və etnik məzhəbləri olan İraq xalqı Azərbaycan xalqına qarşı təcavüzkar müharibəni dəstəkləyə bilməz. Əksinə, İraq Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirməlidir. “Bu səbəbdən səlahiyyətli orqanların məsələni araşdırması və məsələ ilə bağlı açıqlamalar verməsi, İraq vətəndaşlarının və bu ölkədə fəaliyyət göstərən təşkilatların bu prosesdə iştirak edib etmədiklərini yoxlamaları və bu beynəlxalq hərbi ittifaqları ictimai ərazilərdə dayandırması lazımdır”. Qeyd edək ki, məqalə alrased.news saytı ilə yanaşı, https://sindibadnews.com, https://ashourland.net/ internet portallarında dərc olunub.

**Rövşən**

# Azərbaycan: bütün cəbhələrdə böyük qələbəyə!



## Azərbaycan uzun illər səbrlə aparılan düşünülmüş strateji siyasətin və mükəmməl ordu quruculuğunun bəhrələrini əldə edir

***Bir neçə gündür ki, Qarabağ ətrafında həm siyasi, həm də hərbi vəziyyət gərginləşib. Ordumuz qoşunların təmas xəttində və sərhədlərimizdə erməni təxribatlarının qarşısını alır və düşmənə ağır zərbələr endirirlər. Son illərdə ordunun maddi-texniki təchizatının ən yüksək səviyyəyə çatdırılması, hərbçilərin peşəkarlığının artırılması, ən modern hərbi texnologiyaların alınması Azərbaycan ordusunu regionun ən qüdrətli ordusuna çevirib.***

### Qarabağ cəbhəsində mövqelərin nəzərdən keçirilməsi

Son 3 gündə ordumuzun apardığı əkshücum kampaniyası və anti-terror əməliyyatları öz bəhrələrini verib. Xeyli yaşayış məntəqəsi və yüksəkliklər düşməndən azad edilib, yüzlərlə terrorçu məhv edilib. Cəbhədə əldə etdiyimiz sarsıdıcı üstünlükdən qorxuya düşən ermənilər işğal olunmuş ərazilərimizi kütləvi tərk etməyə başlayıb, erməni əsgərləri isə ya təslim olur, ya da geri çəkilir.

Ən əsası, ən ağır period olan ilk möhkəmləndirilmiş müdafiə səddi və minalanmış sahələr keçilib, artıq qısa müddətdə digər ərazilərin azad ediləcəyinə şübhə yoxdur. Ağdərə, Füzuli, Ağdam istiqamətlərində düşmənə sarsıdıcı zərbələr vurulub və qoşunlarımız xeyli irəliləyib.

Çarəsiz qalan Ermənistan ordusu və xaricdən gətirdikləri terrorçular artıq müqavimətin mənasız olduğunu anlayıblar. Ordumuzun rəhbərliyi lüzumsuz qan tökülməməsi üçün mühasirəyə alınmış düşmən hərbi alaylarına təslim olmaq və geri çəkilmək haqda ultimatum verib.

Ermənistan Müdafiə Nazirliyi məğlubiyyəti etiraf etməmək üçün saysız nağıllar, əfsanələr uydurub dünya və ölkə mediasına göndərməklə məşğuldur. Gah deyirlər Azərbaycan Ordusunun filan qədər texnikasını vurmuşuq, amma ortada bircə foto və ya video yoxdur. Gah deyirlər Türkiyə bizimlə müharibə edir, amma yenə ortada bircə fakt yoxdur. Gah da deyirlər Azərbaycan Ordusu mülki şəxsləri qırır, buna aid də heç bir fakt yoxdur. Üstəlik, Qarabağ bölgəsində xeyli sayda xarici jurnalist var və onlar bunların yalan olduğunu öz gözləri ilə görürlər.

### Siyasi və diplomatik cəbhədə vəziyyət necədir?

Ermənistan hökuməti beynəlxalq təşkilatlara və fövqəldövlətlərin rəhbərlərinə fasiləsiz yalvarsa da nə hərbi, nə də siyasi dəstək əldə edə bilməyib.

Rusiya rəhbəri Putin açıq mətnlə bəyan etdi ki, "biz digər ölkələrin daxili işlərinə qarışmırıq". Yəni, öz ərazisi olan Qarabağı terrorçulardan və işğalçılardan təmizləmək Azərbaycanın daxili işidir.

Ermənilərin dünyada ən böyük hamisi olan, Ermənistan hakimiyyətinin başına öz adamlarını qoyaraq ölkəni idarə edən, Qarabağdakı terrorçu rejimə hər il öz dövlət büdcəsindən açıq maliyyə yardımları göstərən yeganə dövlət olan Amerikanın rəhbəri Tramp belə "düşünürük, görək döyüşləri necəsə dayandıra bilərikmi" kimi mənasız bəyanatla yaxasını kənara çəkdi.

Fransa prezidenti Makrona yalvaran Paşinyan heç bir nəticə əldə edə bilmədi, o da, çalışacağıq döyüşlərin dayandırılması üçün addım ataq" deyərək kənara çəkildi.

Beynəlxalq təşkilatlar isə "tərəfləri sülhə çağırırıq" tipli bəyanatla məsələni yola verdilər. Beləliklə, Ermənistan beynəlxalq aləmdə təkləndi. Bu, əlbəttə, havadan yaranan bir iş deyil. Bu, uzun illər səbrlə, əzmlə aparılmış xarici siyasətin, düşünülmüş diplomatiyanın zəfəridir.

Hazırda siyasi-diplomatik cəbhədə və informasiya müharibəsində ardıcıl olaraq inanılmaz qələbələr qazanılır. Azərbaycan rəhbərliyi həm yaranmış əlverişli beynəlxalq və geosiyasi situasiyadan vaxtında və məharətlə faydalanır, həm də uzun illər səbrlə aparılan düşünülmüş strateji siyasətin bəhrələrini əldə edir.

### Qarabağın azad edilməsi üçün tarixi şərait necə yetişdi?

Anti-terror əməliyyatlarının başlanması üçün ən uyğun vaxt yetişmişdi. Son illərdə Rusiya və Türkiyə arasında yaranmış və möhkəmlənməkdə olan dostluq və yaxın əməkdaşlıq münasibətləri, dünyanın, xüsusən də Amerika və Avropanın başının pandemiyaya qarışması, Ermənistanda sosial-iqtisadi böhranın kəskinləşməsi buna yaxşı fürsət yaratmışdı.

Ermənistanın KTMT üzvü olmasına baxmayaraq, həm təşkilat üzvü olan dövlətlər ayrılıqda, həm təşkilatın rəsmi bəyanatında Qarabağda aparacağı anti-terror əməliyyatlarına qarşı heç bir yardım göstərməyəcəyini bəyan etməsi də Yerevanı çətin vəziyyətdə qoydu.

Hakimiyyət başına Amerika agentlərinin gəlməsindən sonra ölkə ABŞ təsirinə keçmiş və Rusiyadan asılılığını lığv etməyə çalışırdı ki, bu da Moskvanı qəzəbləndirməyə bilməzdi. Buna görə də, Rusiya başlanmış prosesdə Azərbaycana qarşı heç bir etiraz və ya tələb irəli sürmədi.

İndi həm düşmən ölkə, həm də onun dünyadakı havadarları fakt qarşısında qalıb. Artıq məsələnin uzatmağın yeri yoxdur. Ya Ermənistan ordusu və terrorçu dəstələr könüllü şəkildə Qarabağdan çıxacaq, ya da Azərbaycan ordusu öz ərazilərini işğalçı-terrorçulardan təmizləyəcək.

### Bakı sülh üçün bütün imkanlardan istfadə etdi

30 ildir ki, Bakı işğalçı qoşunların Dağlıq Qarabağ ətrafındakı Azərbaycan rayonlarından çıxarılması məsələsində ABŞ, Rusiya və Avropa dövlətlərindən, həmçinin beynəlxalq təşkilatlardan Ermənistana təzyiq göstərməsini tələb edirdi. Lakin heç bir cavab və ya ciddi reaksiya yox idi. İndi anti-terror əməliyyatları başlayandan sonra əl-ayağa düşüblər. Əsasən də, ABŞ və Avropa cəbhədə fəallığın artmasından narahat olduqlarını bəyan edirlər.

Yaxşı cənablar, bəs nə təklif edirsiniz? Bəlkə heç bu barədə danışmayaq, öz torpaqlarımızı Ermənistana bağışlayaq? Hanı sizin beynəlxalq təşkilatlarınız, dünya birliyiniz, strateji əməkdaşlığınız? Axı biz sizin üçün nə mümkündür etmişik. Bunun əvəzində siz Ermənistanı müdafiə edirsiniz?

Biz başa düşürük, o vaxt SSRİ-ni etnik münaqişələr zəminində dağıtmaq üçün erməni lobbisindən istifadə etmisiniz, Qarabağ problemini bizim üçün hazırlamısınız. Buna görə erməniləri dəstəkləməyə boyun olmuşdunuz. Lakin artıq necə deyərlər keçmiş keçmişdir. Biz bunu sizə bağışlayırıq, amma imkan verin, sizin yaratdığınız problemin ədalətli həllini biz özümüz həyata keçirək.

Sözdə terrora qarşı olduğunuzu deyirsiniz, indi Azərbaycan anti-terror əməliyyatı keçirəndə niyə narahat olursunuz ki? Azərbaycan sülh üçün mümkün olan hər şeyi etdi, çox uzun müddət gözlədi. Artıq bıçaq sümüyə dirənmişdi. Yalnız Ermənistan sülh üçün bütün imkanların tükəndiyini bəyan edəndən sonra Azərbaycan probelmin həlli üçün qalan yeganə yola əl atdı.

### Qərbin maraqlarına kim daha çox cavab verir?

Fakt budur ki, Azərbaycandakı iqtisadi layihələrdə, siyasi, hərbi məsələlərdə Qərb dövlətlərinə daha çox üstünlük verilib. Azərbaycanın xarici siyasətinin əsas istiqaməti Avropa məkanına inteqrasiyadır. Enerji layihələrində böyük paya Qərb dövlətləri malikdir, ölkə iqtisadiyyatına investisiya qoymaq üçün Qərb şirkətlərinə daha çox imkan yaradılıb. 50 milyardlıq strateji rezervlərimiz Qərb fondlarına qoyulub. Beləliklə, biz Qərb üçün nə verə biliriksə, vermişik.

İraqda, Bosniyada, Əfqanıstanda beynəlxalq koalisiyanın tərkibində fəal iştirak etmişik. Bir sözlə, Azərbaycanda Qərbin bütün maraqları təmin olunub, strateji əməkdaşlıq edilir, ölkə sərvətlərindən ciddi qazanc əldə edirlər. Amma əvəzində heç nə görmürük.

Niyə beynəlxalq qanunlara, insani etikaya tüpürərək qonşu xalqlara qarşı açıq terror və soyqırım həyata keçirən, başqa dövlətin ərazisini işğal edən dövlətə təzyiq etmədiniz? Beynəlxalq təşkilatların qətnamələri kağız parçası sayan Yerevana niyə heç nə deyə bilmədiniz? 30 ildir gülməli, şablon bəyanat və açıqlamalarla kimin başını qatırsınız? Özləri demokratik, ədalətpərvər olmayan dövlətlər başqalarından nə haqla nəsə tələb edə bilərlər?

Azərbaycan bloklara qoşulmayanlar hərəkatında təmsil olunur. Lakin NATO, Qərb institutları ilə sıx əməkdaşlıq edilir. Həmçinin, Rusiya ilə.

### Rusiyanın maraqları nəyi tələb edir?

Şimal qonşumuzla da həm iqtisadi əməkdaşlığımız yüksək səviyyədədir, həm siyasi, həm də mədəni əlaqələr. Rusiyaya Azərbaycan daha çox fayda verir, nəinki Ermənistan. Bu halda indiyədək Rusiya niyə Azərbaycanı müdafiə etməyib? Yəqin ki, Kreml bu səhvlərini başa düşüb.

Proseslərin dinamikasına baxsaq, görərik ki, Rusiya Azərbaycana qarşı siyasətini dəyişir, Ermənistanla münasibətlərdə soyuma müşahidə olunur. Kremldə artıq anlayırlar ki, getdikcə gərginləşən mübarizədə əsas məsələ strateji iqtisadi maraqlardır, buna görə də ağıllı seçim vaxtı yetişib.

Moskva Azərbaycanın timsalında Qafqazda və Xəzərdə nələri itirdiyini anlamağa başlayır. Böyük enerji, tranzit, ölkədaxili iqtisadi layihələrdə, ticarət əməliyyatlarında, eləcə də siyasi, hərbi və s sahələrdə Azərbaycanın Rusiyaya verdiyi xeyir, Ermənistanın vurduğu zərərlə müqayisə ediləndə məsələ aydın olur. Amerikanpərəst hakimiyyətin başına gəldiyi Ermənistan artıq Rusiyanın düşməni tərəfindən idarə olunur.

Faktiki olaraq, Rusiyanın maraqları Azərbaycanla strateji müttəfiqliyi tələb edir. Əgər vaxtında Rusiya torpaqlarımızı azad etməkdə bizə dəstək versəydi, biz onunla daha sıx əməkdaşlıq edərdik, məsələn neft və qazın ixracını Rusiya vasitəsilə həyata keçirərdik ki, Moskva da bundan həm iqtisadi, həm siyasi dividentlər əldə edərdi. Ermənistandan isə Rusiya heç bir divident əldə etmir, bu ölkə ilə əməkdaşlıq Rusiyaya zərər vurur.



...

Azərbaycan dünyanın sivil, iqtisadiyyatı inkişaf etmiş, zəngin qədim və müasir mədəniyyətə malik sosial dövlətlərindən biridir. Bütün xalqların, iqrlərin, dinlərin... birgə və mehriban yaşadığı nümunəvi multikulturalizm adasıdır. Bizim dəyərlərimiz budur. Bu dəyərlər bizə hər hanı bir problem sülh yolu həll etməyi öyrədib. Lakin bir halda ki, başqa variant qoymadınız, onda bizim hər kəslə öz başa düşdüyü dildə danışmağa da haqqımız və gücümüz var.

Azərbaycan dövləti, Azərbaycan Prezidenti də məsələlərə bu kontekstdən baxır-əsas Azərbaycanın maraq və mənafeləridir və biz öz ölkəmizin maraqlarını təmin etməliyik. Elə belə də edirik. Qarabağ üçün hər şeyə getməyə dəyər- hər şeyə!

***Elçin Bayramlı***

# Uşaq qatili Ermənistan: cavab verməyin zamanıdır!

*Üstəlik qulağıkəsik Andranik babalarının da yerinə cavab verəcəklər, mütləq verəcəklər*

***Bu gün dünyaya "mülki əhalimiz qırılır" fonunda yenidən "məzlum erməni" görüntüsü yaradan, məhz həmin görüntülər altında cəbhədə davam edən irimiqyaslı hərbi toqquşmalarda uşaq qatilliyini davam etdirən işğalçı Ermənistan ordusu, əslində, bir daha sübut edir ki, bu dövlətin əsas qayəsi terrorçuluqdan ibarətdir.***

Məhz terroru dövlət siyasəti kimi icra edən bu ölkədə kimlərin hakimiyyətdə olmasından asılı olmayaraq, daim antitürk mövqeyi öndə dayanıb. İstər birinci Qarabağ müharibəsi, istər atəşkəs dövrü, istərsə də atəşkəsin pozulduğu bütün dövrlərdə ermənilərin hədəfləri mülki vətəndaşlarımız, qadınlar, yaşlılar və uşaqlar olub. Bu, danılmazdır və faktlara söykənən acı reallıqdır.



**Bütün dünya dərk edir ki, Azərbaycan işğal altında qalan ərazilərinin azad olunmasını tələb edir və 30 ildir danışıqlar masasında nala-mıxa vuran erməni tərəfinin nazı ilə bundan sonra da oynaması limiti bitib-tükənib**

Həmin reallıq bu gün də - artıq bir neçə gündür işğalçıların cəbhəboyu istiqamətdə başlatdıqları təxribatçılıq əməllərində davam etməkdədir. Belə ki, sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Naftalan şəhərində bütöv bir ailənin həlak olması xəbəri dünyanı sarsıtdı. Bu qanlı əməlin törədilməsinin baiskarı olan Ermənistan hakimiyyəti isə, hələ də dünya ictimaiyyətini inandırmağa cəhdlər göstərir ki, guya Azərbaycan tərəfinin "günahı" üzündən həmin hadisə baş verib, Azərbaycan ordusu hərbi əməliyyatlara başlamasaydı, həmin hadisə baş verməzdi və s. Əlbəttə, bu erməni xislətinin davam edən mənfur, idbar siyasətidir və aşkar günahı başqalarının üzərinə atmaq sərsəmliyidir. Çünki bütün dünya bilir və dərk edir ki, Azərbaycan sadəcə işğal altında qalan ərazilərinin azad olunmasını tələb edir və 30 ildir danışıqlar masasında nala-mıxa vuran erməni tərəfinin nazı ilə bundan sonra da oynaması limiti bitib-tükənib. Lakin Ermənistanın hələ də bu məsələdə inadkarlıq nümayiş etdirməsi, üstəlik uşaqlarımızı, körpələrimizi hədəfə alması artıq bıçağın sümüyə dirənməsinə səbəb olub və törətdiyi cinayətlərinə görə də cavab verməyə məhkumdur. Azərbaycanın şanlı silahlı qüvvələri düşmənin mülki vətəndaşları ilə deyil, məhz terrorçu ordusu ilə müharibə aparır, layiqli cavablarını verir, ərazilərimizi azad edir.

**Terrorçu Ermənistan 1949-cu il Cenevrə Konvensiyalarını kobudcasına pozur və həmin əməllərinə görə də cavabını artıqlaması ilə alacaq və alır!**

Bütöv bir ailənin məhv olmasına səbəb olan bu təcavüz nəticəsində həlak olanlardan ikisi - 2007-ci il təvəllüdlü Şəhriyar Qurbanov və onun əmisi qızı, 2006-cı il təvəllüdlü Fidan Qurbanova Z.Rüstəmov adına Qaşaltı Qaraqoyunlu kənd tam orta məktəbinin şagirdləri olublar. Onların ümidlərlə gələcəyə baxan gözləri əbədi olaraq yumulub. Onlar daha yaşamırlar, nəfəs almırlar və bu acı hər bir azərbaycanlının ürəyində qubar bağladı. Bu fakt sübut etdi ki, işğalçı və terrorçu Ermənistan tərəfi Azərbaycanın mülki əhalisini və infrastrukturunu məqsədyönlü şəkildə hədəfə almaqla beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını kobudcasına pozur və həmin əməllərinə görə də cavabını artıqlaması ilə alacaq və alır, lakin mülki əhalisi deyil, məhz ordusu və rəhbərliyi ilə!

### Qarabağda və ətraf rayonlarda həmin əməllərini davam etdirirlər

Ancaq bu məsələnin dünya ictimaiyyətinin diqqətinə çatdırılması üçün biz davamlı olaraq işğalçıların uşaq qatilləri olduğunu xatırlatmalıyıq. Çünki bir neçə il əvvəl Füzuli rayonunun Alxanlı kənd sakini, 2 yaşlı Zəhranı və nənəsini qətlə yetirən ermənilərin bu hərəkəti lənətlənsə də, qana həris düşmənlərimiz deyilənlərdən nəticə çıxarmayaraq cinayətkar əməllərini hələ də davam etdirirlər.

20 Yanvar faciəsi ərəfəsində, 19 yanvar 1990-cı ildə Sədərək rayonunu top atəşinə tutan ermənilər həyətlərində oynayan Malik və Elvin qardaşlarının qətlə yetirilmələrini də bizlər unutmamalı və unutdurmamalıyıq.

Münaqişə başlanan illərdə Qərbi Azərbaycanda doğma torpaqlarından qovulan soydaşlarımıza qarşı vəhşiliklər törədən erməni terrorçuları və qaniçənlərinin uşaqlara qarşı qatı cinayətlərə imza atmaları da çoxsaylı sübutlara, faktlara əsaslanır. 10-13 yaşlı uşaqları dəmir boruya dolduraraq ətrafına mazut töküb yandıranlar, körpələri əzabla öldürən ermənilər bu gün Qarabağda və ətraf rayonlarda həmin əməllərini davam etdirirlər.

Yaxud, bilərəkdən çaya axıtdıqları oyuncağa partladıcı yerləşdirən həmin ermənilərdir ki, gəlinciyi götürmək istəyən Tovuz rayon sakini, 13 yaşlı Aygün Şahmalıyevanı qətlə yetirdilər. Erməni snayperinin gülləsi ilə həyatına son qoyulan 9 yaşlı Ağdam rayon sakini Fariz də erməni terrorunun, erməni faşizminin qurbanı olub. Yəni ermənilərin vəhşiliklərindən bəhs edən yüzlərlə, minlərlə belə sübutlar vardır və həmin vəhşiliklərin ən dəhşətlisi əlbəttə ki, Xocalıda törədilmiş soyqırımıdır.

### Onların qətlə yetirdikləri uşaqların, yeniyetmələrin, sayı isə minlərlədir

Əbəs deyil ki, Xocalı soyqırımının dözülməz mənzərəsindən, erməni qəddarlığından dəhşətə gələn fransız jurnalisti Jan İv Yunet yazırdı: "Biz Xocalı faciəsinin şahidiyik. Biz Xocalı müdafiəçilərinin, yüzlərlə dinc sakinin - qadınların, uşaqların, qocaların eybəcər hala salınmış cəsədlərini gözlərimizlə gördük... Ermənilər bizim vertolyotu da atəşə tutduqlarına görə çəkilişi başa çatdıra bilmədik. Amma elə yüksəklikdən gördüklərimiz də törədilən vəhşilikləri təsəvvürə gətirmək üçün kifayət edirdi. Bu, tükürpədici mənzərə idi. 5-6 yaşlı uşaqları, qundaqdakı körpələri, hamilə qadınları vəhşiliklə öldürən ermənilər cəlladlıqda heç kəslə müqayisəyə gəlməzlər."

Ermənilərin işğal etdikləri ərazilərdə əsir götürdükləri azərbaycanlılara qarşı amansız münasibəti əks etdirən, "Moskovskiy komsomolets" qəzetində dərc olunmuş "Neftyanoy sindrom" (29.01. 1994) sərlövhəli məqalədə isə yazılmışdı: "...Növbəti kəndi zəbt edən bir erməninin diri körpəni götürüb iki böldüyünü görmüşəm. Sonra bədəninin bir hissəsi ilə anasının sifətinə, başına o qədər döydü ki, övladının al qanına bulaşmış qadın dəli olub gülməyə başladı."

Dəhşət doğuran, bu millətin genlərindən irəli gələn qana hərislik xüsusiyyətlərini və vəhşiliklərini əks etdirən nümunələr əsrlərdən bəri azərbaycanlılara, türklərə qarşı törədilən erməni vandalizminin cüzi hissəsi, yalnız uşaqların başına gətirdikləri müsibətlər haqqında etiraflardır. Onların qətlə yetirdikləri uşaqların, yeniyetmələrin, sayı isə minlərlədir.

### Malik, Elvin, Aygün, Fariz, Zəhra... onlarla adları bəlli olmayan günahsız körpə

Söz yox ki, bütün bu vəhşiliklərə son qoymağın tam zamanıdır. Qısa zamanda Ermənistanın əvvəlki və hazırkı hərbi-siyasi rejimləri, həmçinin "dqr" terrorçuları qətlə yetirdikləri Malik, Elvin, Aygün, Fariz, Zəhra... onlarla adları bəlli olmayan günahsız körpə, uşaq, yeniyetmə üçün cavab verməli olacaqlar. Üstəlik, qulağıkəsik Andranik babalarının da yerinə cavablarını verəcəklər, mütləq verəcəklər!

Bu gün isə tarix yazan və qürur mənbəyimiz olan zabit və əsgərlərimizə torpaqlarımızın işğaldan azad edilməsi yolunda apardıqları namus mübarizəsində uğurlar, qələbələr, zəfərlər arzulayırıq, Allah hər birinə yar olsun!

***Rövşən RƏSULOV***



**Təhmasib Novruzov**

# İnamdan imana gedən yolda möhtəşəm zəfər

Bu gün milyonlarla Azərbaycan türkünün, on milyonlarla Azərbaycan dostlarının hər birinin ürəyindən keçir deyəcəklərim və demək istəyib Azərbaycan türkcəsi kimi zəngin dilimizdə belə ifadə etməyə qüdrətli sözlər toplusu tapmaqda zorlanıb deyə bilmədiklərim. 1747- ci ildən - qüdrətli sərkərdə Nadir Şah Əfşarın ölümündən bu yana parçalana-parçalana neçə yerə bölünən, bölünə-bölünə kiçilən, kiçilə-kiçilə düşmənlərin üstümüzə ayaq almalarına şərait yaradılan bir məmləkət yenidən silkələndi, yenidən varlığını, qüdrətli bir xalqın xələfi olduğunu dünyaya göstərdi...

İki gündür dünyanın harasından zənglər gəlmir? İki gündür otuz ildən çox inildəyən, iniltisindən qopan bağırtılarla dünyadan ədalət uman iliklərimizi titrədən sevinc dolu qəhərimizə, göz yaşlarımıza dünyanın harasından qoşulmurlar bizlərə? Hələ davamı olacaq bu möhtəşəm rəşadətin iki günlük sevincinə dünyanın harasından sevinc hayqırtıları eşitmirik? Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən özülü qoyulmuş möhtəşəm siyasi kursun son on yeddi ildə sədaqətlə, həm də zamanın tələbləri fonunda yaradıcılıqla, qətiyyətlə irəli aparılması əksəriyyət kimi məndə də belə bir günün gələcəyinə qəti inam formalaşdırmışdı. Hər kəs kimi mən də inanırdım, həm də qəti olaraq inanırdım ki, məhz dünyanın ən güclü diplomatik gedişləri ilə dostları sevindirən, düşmənləri pəjmürdə edən Prezident, Ali Baş Komandan İLHAM ƏLİYEV iqtidarı bu sevinci də bizlərə yaşadacaq. Dünyanın nəhəng dövlətləri sırasında kiçik görünən, hələ cəmi iyirmi doqquz illik müstəqillik yaşı olan bir məmləkətin beynəlxalq aləmdə qazandığı uğurlar yaratmışdı bizlərdə bu inamı! Dünyanı öz əllərində saxlamağa çalışan beş nəhəng dövlətlə bərabər BMT-nin Təhlükəsizlik Şurasında yer alanda artmışdı bizlərdə bu inam! Bizdən qat-qat güclü olan dövlətlərin arzuları əleyhinə Azərbaycan neftini, qazını birbaşa Avropaya daşıyacaq kəmərlərin reallaşdığını görəndə artmışdı bizlərdə bu inam! Tarixi İpək Yolunun, hər cür maneələrə baxmayaraq reallaşdığını, şərq-qərb və şimal-cənub nəqliyyat dəhlizinin xəyallardan gerçəkliyə çevrildiyini görəndə artmışdı bizlərdə bu inam! Dünyanı ən mötəbər tribunalarından Azərbaycan həqiqətlərinin dünyaya hayqırılmasını izlədikcə artırdı bizlərdə bu inam! Diplomatik istedadın sayəsində dünyanın bütün beynəlxalq təşkilatlarında Azərbaycan həqiqətlərinin dünyaya tanıtdırıldığını, bunların nəticəsində qəbul edilən qərarları gördükcə artırdı bizlərdə bu inam! Xalqın sosial durumunun ilbeil artırılmasına yönəlik tarixi qərarlar veriləndə, ölkədə korrupsiya adlanan bəlaya açıq savaş açıldığını görəndə artırdı bizlərdə bu inam! Paytaxt Bakı başda olmaqla ölkənin bütün əyalətləri tamamən yeni görkəm aldıqca artırdı bizlərdə bu inam! Son iki ildə oyuncaq Baş(əslində "boş") nazir Paşinyan başda olmaqla Ermənistan siyasilərinin bütün məqamlarda diplomatik mat vəziyyətinə salınmasını gördükcə artırdı bzlərdə bu inam! Nəhayət, xalqın milli ruhunun yüksəlişinə, Vətənə sevgi hissinin kükrəməsinə yönəlik atılan addımların şahidi olduqca artırdı bizlərdə bu inam!

Sadaladığımız və sadalamadığımız, cəmi on yeddi illik qısa bir zamana sığışdırılmasını təsəvvür belə edə bilmədiyimiz bu tərəqqidən yaranan inamlar toplusu imanımızı möhkəmlətdi, imanımızla yoğrultdu bizləri. Bu günkü rəşadətimizin on illər boyu qətiyyətlə aparılan inanılmaz fədakarlığın, yuxusuz gecələrin, dinclik bilməyən zəhmətin bəhrəsi olduğunu hər kəs bilir, anlayır. Tarixi düşmənimiz olan, Rusiyanın və digər böyük güclərin dəstəyinə arxalanıb bütün dövrlərdə başımız üzərində at oynadan haylara, üstümüzə fısqırdıldığı iki yüz illik tarixdə ilk dəfə istəklərinin gözlərində qoyulmasına nail olduq. XIX əsrin 20-ci illərində Azərbaycana köçürüldülər, etiraz etdik, səsimizi batırdılar. Ötən əsrin əvvəllərində Azərbaycan torpaqlarında, kiçik bir ərazidə dünya güclərinin təzyiqi ilə dövlət qurdular, dinməyimizə imkan verilmədi. Sövetlər dövründə Zəgəzur, Dərələyəz torpaqları bu qondarma respublikaya pay verildi, ayağa qalxdıq, ayaqlarımızı imperiya azreqatı ilə doğradılar. Qədim Azərbaycan tirpağı olan Qarabağda haylara muxtariyyət verdilər, yenə ucalan səsimizi kəsə bildilər. Eyni ssenarini davam etdirmək istəyən böyük güclər ötən əsrin sonlarında bu torpaqlarda ikinci hay dövləti qurmaq siyasətini hazırladılar. Əslində reallaşdırmaları üçün hər şey də etdilər. Lakin bu dəfə qarşılarına qaragüruhçular, zamanın tələbinə uiyğun olan diplomatik gedişlərdən uzaq olub , qəhramacasına savaşan sadəlövh xalq kütləsi deyil, dünya siyasətini mükəmməl bilən, diplomatiyada qarşısına çıxan hər kəsi mat edə bilən bir qüdrət çıxdı. Çıxdı və sadəcə işğal olunmuş torpaqlarda düşmənə qan uddurmadı, həm də millətin iki yüz ildə itirdiyi inamını özünə qaytardı. Bu qüdrətə inanıb da iman gətirməmək mümkünmü?

Böyük, tarixi qələbən mübarək, ALİ BAŞ KOMANDAN!

Zəfərlərin çox olsun rəşadətli AZƏRBAYCAN ƏSGƏRİ!

Bu böyük tarixi günləri görən gözlərin aydın olsun, AZƏRBAYCAN XALQI!

# Paşinyan ölümə hazırlaşır



***Azərbaycan Ordusunun uğurlu əməliyyatları, düşmənə layiqli cavabı, Ermənistan tərəfini aciz vəziyyətə salması işğalçı ölkədə rezonans doğurub. İşğalçı ölkə rəhbərinin təlaşı başadüşüləndir. Çünki, Ermənistan tərəfi növbəti dəfə Azərbaycanın həmləsinin qarşısında tab gətirmək iqtidarında olmadığının şahidi oldu. Azərbaycan Ordusunun antiterror əməliyyatları qarşısında məğlubiyyətlərini görən və dərk edən, başda erməni baş naziri olmaqla bütün erməni səlahiyyətliləri indi yenə də xarici ölkələrin, beynəlxalq təşkilatların qapısını döyməyə və köməyə çağırmağa başlayıblar.***



Gün ərzində başda Rusiya prezidenti Putin olmaqla bir neçə ölkə başçısına tələsik zəng vuran Ermənistan rəhbərliyinin qorxusu yenə də özünü göstərir. Sual oluna bilər, "hərbi qüdrətin"dən dəm vuran Paşinyan nəyə görə "böyük qardaşına" yardım üçün ağız açır? Əgər Nikolun belə "rəşadətli" ordusu, yaxud, "hərbi qüdrəti" yox idisə, o zaman nəyə görə hədə ritorikası ilə danışırdı? Yaxud, hədə ritorikası ilə danışan erməni baş nazirə indi nə oldu ki, parlamentdə əlləri əsməyə başladı? Baş nazir postunu dövlət çevrilişi ilə qamarlayan küçə nümayişçisi əllərinin əsməsi, özünü itirməsi səbəbindən parlamentin tribunasında bir neçə dəfə su qabını dağıtdısa, bu onun həyəcanının pik həddindən xəbər verir. Əslində, bundan əvvəlki hədə ritorikası başa düşülməsə də, onun həyəcanını başa düşmək çətin deyil. Bu populist real həqiqətlərlə üz-üzə qalıb və özünü də, rəhbərlik etdiyi, daha doğru aldatdığı xalqı da nə gözlədiyini yaxşıca anlayıb. Elə buna görə də "əl məndən, ətək səndən" deyib düşüb Rusiya, Fransa prezidentlərinin, eləcə də beynəlxalq qurum rəhbərlərinin ayağına.

İşğalçı ölkənin mediasında qəribə yazılara rast gəlinir və bu yazılarda Ermənistan öz müttəfiqi hesab etiyi, "böyük qardaş" sandığı ölkələrə çox aqressiv münasibət sərgilənir. Məsələn, armenianreport.am saytı "Rusiya bizi satdı" başlıqlı məqalə dərc edib. Belə bəlli olur ki, həmişəki kimi, Ermənistan Rusiyanın ermənilər tərəfdən Azərbaycana qarşı döyüşməsini gözləyirmiş. Amma, bu ölkə "başbilənləri" anlamaq istəmirdilər ki, artıq Azərbaycan ötən əsrin sonlarındakı Azərbaycan deyil və o dövrün xaotik idarəetməsi, hakimiyyətindən fərqli olaraq ölkəmizin güclü siyasi iradəyə malik hakimiyyəti var və təkcə Rusiya deyil, digər nüfuzlu dünya dövlətləri, eləcə də beynəlxalq təşkilatlar bu reallıqla hesablaşmaq məcburiyyətindədirlər. Ki, Azərbaycan Ordusu dünyanın ən güclü, ən qüdrətli ordularındandır və ən müasir hərbi sursatla təchiz olunub, elə bu hesablaşmaq məcburiyyəti də erməniləri meydanda tək qoydu. Cənab Prezident İlham Əliyevin də dediyi kimi, Ermənistanın bizimlə təkbətək döyüşmək hünəri olmadığı öz təsdiqini tapdı. Ümumiyyətlə, işğalçı ermənilər ölkə başçımızın onlara ünvanladığı mesajlardan dərs götürməyin vacibliyini cəbhənxəttində son hadisələr, məğlubiyyətləri fonunda çox yaxşı başa düşdülər.

Ermənistan tərəfinin meydanda tək qaldığını günün reallığıdır. Bu reallığı indi həmin ölkənin rəhbərindən tutmuş ən sıravi vətəndaşına qədər hər biri yaxşı başa düşür. Məsələn, baş nazir Nikol Paşinyanın arvadı Anna Akopyanın cəbhə xəttinə gedərək, dəstək üçün gəldiyini ifadə etməsi təsdiq edir ki, indi işğalçı ermənilərin son dəstəyi elə özlərindən ola bilər və baş nazir arvadının erməni əsgərlərdə tənhalıq, təklik kimi qorxu hissinin qarşısını almaq niyyəti göz qabağındadır. Heç şübhəsiz ki, "rus qardaşları" bu vəziyyətdə döyüşə qatılmış olsaydılar Anna Akopyanı sürüyüb belə cəbhə xəttinə gətirmək olmazdı, buna ehtiyac da duymazdı. Amma göründüyü kimi buna ehtiyac duyuldu və Ermənistan üçün çox acınacaqlı haldır ki, bu işğalçı ölkə əsgəri bir qadının dəstəyinə, onun selfilərinə belə ehtiyac duydu.

Digər bir məqam isə, bir qədər əvvəl Ermənistanın baş nazirinin, müdafiə nazirinin, "yeni müharibə yeni torpaqlar itkisi ola bilər" sözləri ilə bağlıdır. Görəsən, bu gün təkcə Ermənistan vətədaşları deyil, bütövlükdə erməni cəmiyyəti populistlərin dediklərinin mənasız söz yığını olduğunu dərk etdilərmi, yoxsa hələ də zombiləşmiş şəkildə onların cəfəngiyyatlarına qulas asmaq niyyətindədirlər? Nə nəticə verdi Ermənistanın ən səlahiyyətlilərinin vədləri? Dünya ictimaiyyəti işğalçı dövlətin hakim dairəsinin vədlərinin, bəyanatlarının əksini müşahidə etdilər. Növbəti dəfə təxribat törətməyə cəhdi sonda Ermənistan tərəfdən işğal edilmiş və bu ölkə tərəfindən işğalda saxlanılan torparın onlar üçün itgisi ilə nəticələndi. Azərbaycan Ordusu düşmənin təxribatının da qarşısını layiqincə aldı və hətta işğal altında saxlanılan Azərbaycan torpaqlarının bir hissəsi geri alındı. Özü də ən qısa zamanda.

Maraqlıdır, başda Nikol Paşinyan olmaqla, belə sərsəm bəyanatlar verən Ermənistan hakimiyyəti, qondarma respublika əhalisini Ermənistana qaçmağa çağırış edəndə həmin o qeyd etdiyimiz bəyanatını xatırlamır, yoxsa, qeyd olunan bəyanatın ardınca qaçmaq tövsiyyəsi verəndə utanmır? Bu sualı heç şübhəsiz ki, erməni cəmiyyəti Ermənistanın baş nazirinə də, müdafiə nazirinə də tezliklə ünvanlayacaq. Bəlkə də artıq ünvanlayıb. Əbəs yerə deyil ki, Nikol indi də çıxıb vətəndaşlar qarşısında diz çökməməyi tapşırır. Deməli, diz çökəcək durumda olduqlarının fərqindədir. Fərqindədir ki, Azərbaycan Ordusu bütövlükdə Ermənistanı diz çökəcək duruma salıb.

Daha bir məqam heç də diqqətdən yayınan deyil və umid edirik bu ələlxüsus erməni cəmiyyətinin diqqətindən yayınmayıb. Bu məqam ondan ibarətdir ki, baş nazir Nikol Paşinyan Ermənistan parlamentinin xüsusi iclasında ölməyə hazır olduğunu bildirib. Çox böyük təzaddır. Müharibə başlayacağı təqdirdə yeni torpaq işğal etmək kimi boş iddianın ardınca ölməyə hazırlıq heç də bir müstəviyə sığacaq deyil. Hər dəfə nitqi zamanı bundan öncəki fikirlərini təkzib edən erməni baş nazirinin bu dəfəki təkzibi təkzib olaraq müzakirə mövzusu deyil. Müzakirə mövzusu onun iddialı nitqinin ardınca aciz etiraflarıdır. Bu populistin indi öz ölümü ilə razılaşmasıyla bərabər erməni xalqına da ölümə hazır olması tövsiyyəsi vəziyyətin ermənilər, Ermənistan üçün daha acınacaqlı olmasını boynuna almasıdır.

Erməni xalqı nəyə hazır olmalı olduğunun artıq fərqindədir. Bunu 2016-cı ilin aprelində, bu ilin iyulunda olmaqla dəfələrlə anlayıb və bu dəfə tam şəkildə dərk edib. Məsələ burasındadır ki, Ermənistana "qızıl dağlar" vəd edən avantürist indi niyə ölməyə hazır olduğunu bəyan edir. Əslinə qalanda, Paşinyan çoxdan siyasi meyit idi və bunu o özü çox yaxşı dərk edirdi. Hər dəfə də polulist bəyanatlar verəndə siyasi meyitə "şok vermək" istəyirdi. Amma göründüyü kimi, şok da ayda vermədi və bunu gec də olsa dərk edən erməni baş nazir ölümə hazır olduğunu ifadə edir.

Əslinə qalanda, erməni baş nazir ölümə hazırlıq görəndə ömründə birinci dəfədir ki, doğru fikirləşir, doğru qərar verir. Çünki, Azərbaycan Ordusunun zəfərlərinin, Ermənistanın məğlubiyyətinin fonunda Nikol Paşinyan təkcə siyasi meyit deyil, elə əsl meyitə çevriləcək. Bu işdə də ona elə ermənilərin özləri kömək edəcək, başqalarına ehtiyac qalmayacaq. Çünki, münaqişənin danışıqlar yolu ilə həllinə mane olan və "ölməyə hazırlaşan" bu populist özü ilə bərabər bütöv bir xalqı, erməni xalqını da ölümə, itgilərə, hətta məhvə sürüklədi və sürükləməkdə də davam edir.

***İnam Hacıyev***

## Rusiya mətbuatı: Xankəndi təşvişdə: ermənilər təxliyə edilir!



Ermənilərin Xankəndidən özbaşına və kortəbii şəkildə təxliyyəsi aparılır. SİA RenTV-yə istinadən xəbər verir ki, bu barədə hadisə yerindən İzvestiya müxbiri Semyon Yeryomin məlumat yayıb. Məlumatda qeyd olunur ki, müxbirin sözlərinə görə, uzaqdan bir neçə partlayışın səsi gəlir. Şəhərin kənarında qadınlar və uşaqlar izdiham halındadırlar. Kişilər ailələrini İrəvana göndərirlər.

"Onları kortəbii şəkildə İrəvana göndərirlər və nəzərə belə almırlar ki, orada onları qarşılayacaq qohumları, tanışları, yaxud kimsələri var, ya yox. Eyni zamanda Xankəndi sakinlərinə deyirlər ki, onları İrəvanda qarşılamaq səlahiyyətlilərin problemidir. Sakinləri təkcə avtobuslar deyil, eləcə də şəxsi maşınlar belə gediş haqqını almadan İrəvana daşıyırlar", deyə müxbir Semyon Yeryomin məlumat verib. Bundan əvvəl RenTV Xankəndində rabitə problemlərinin olduğu və İnternetin olmadığı barədə də bildirilmişdi.

Sözügedən sayt qeyd edir ki, Ermənistan və Azərbaycan arasındakı Dağlıq Qarabağ münaqişəsi sentyabrın 27-də yenidən kəskinləşib. Bildirilir ki, hərbi personal və mülki şəxslər arasında ölən və yaralananlar var.

***İnam***

## İFŞA: Ermənilər saxta fotolarla tank "vururlar"!



Erməni mənbələri dünya mediasında dezinformasiyalarını və psixoloji müharibə taktikalarını davam etdirir. Cəbhədəki məğlubiyyətlərini ört-basdır etmək üçün uydurma məlumatlar yayır, Azərbaycan ordusunun texnikasını vurduqları haqda saxta fotolar dərc edirlər. Məsələn, Rusiyadakı ermənilərə məxsus saytlarda verdikləri bu fotonu Azərbaycan ordusunun vurulmuş tankı kimi qələmə verir. Halbuki, tankın üzərində tamamilə qırmızı bayraq asılıb və fotonun çəkiliş keyfiyyəti onun azı 10-15 il qabağa aid olduğunu göstərir. Bu, hansısa təlimdən olan fotodur və bayrağı tamamilə qırmızı rəngdə olan ölkələrə aid ola bilər. Üstəlik, şəkildə tankın vurulmadığı, sadəcə, tırtılının qırıldığı və enişdə dayandığı görünür. Bir fotoda yazılana heç bir aidiyyatı olmayan bu qədər saxtakarlıq və aşkar yalanı dünyada ancaq ermənilər yarada bilər.

***Elçin***

## Dağlıq Qarabağın azərbaycanlı icması beynəlxalq təşkilatlara müraciət ünvanlayıb



Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması təmas xəttində Ermənistan silahlı qüvvələrinin həyata keçirdikləri hərbi-siyasi cinayətlərlə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb. İcmadan SİA-ya verilən məlumata görə, icma təmas xəttində Azərbaycanın işğal altında olan ərazilərindən dinc əhalinin atəşə tutulduğunu və nəticədə mülki şəxslər arasında tələfat baş verdiyini, evlərin, çox mənzilli yaşayış binaların dağıdılması ilə bağlı faktları beynəlxalq təşkilatların diqqətinə çatdırıb. Həmçinin azərbaycanlı dinc əhaliyə məxsus fərdi təsərrüfatların Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində zərər çəkdiyinə diqqət yönəldilib.

Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı indiyə qədər nüfuzlu beynəlxalq təşkilatların qəbul etdiyi sənədləri əsas götürərək Ermənistanın tərəfindən bu sənədlərin icrasına imkan yaradılmadlğını xüsusi ilə qeyd edib. İcma beynəlxalq təşkilatları təmas xəttində Ermənistan tərəfindən həyata keçirilən hərbi-siyasi cinayətlərə göz yummamağa çağırıb. İcma bəyan edib ki, beynəlxalq təşkilatların haqqı müdafiə etməməsi bu təşkilatların nüfuzuna böyük zərbə vurur.

# Milli-mənəvi dəyərlər qloballaşma kontekstində

**Qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda yüksək nailiyyətlərə, mütərəqqi dəyişikliklərə yol açsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi-mənəvi dəyərlərə müəyyən təhlükə meylləri də özünü qabarıq göstərir. Multikulturalizmin mövcudluğu qloballaşmanın qarşısında əsas əngəldir və bəzi qlobal qüvvələr məhz bu səbəbdən mədəni müxtəlifliyi sıradan çıxarmağa, fərqli etnik, dini, mədəni bazaya malik xalqların monoton mədəniyyətə və süni dəyərlərə yiyələnməsinə çalışırlar.**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycançılıq ideyasının təbliğı" istiqaməti çərçivəsində hazırlanıb*

### Milli-mənəvi dəyərlərin aşılanmasında məktəblərin rolu

Şərq-Qərb sivilizasiyasının bir-birinə yaxınlaşdığı, bəzən də gizli və açıq mübarizələrin getdiyi bir zamanda soykökə qayıdışın, milli özünüdərkin böyük əhəmiyyəti vardır. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi meyarlarını pak və sağlam niyyətlərlə qoruyaraq bütövlükdə cəmiyyətin pozitiv ruhda inkişafına təsir göstərmək, onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək əsas vəzifələrdəndir.

Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəliləyiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusilə aktuallıq kəsb edir. Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək, "Gənclərimiz milli ruhda, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır".

Respublikanın gələcək taleyi onun gənclərindən asılı olduğu üçün təhsildə aparılan islahatlar milli ənənələrimizə, milli dəyərlərimizə söykənərək soykökünə bağlı şəxsiyyətin formalaşdırılmasına xidmət etməlidir. Müasir tərbiyədə məktəbli-müəllim-valideyn münasibətlərinin yeni prizmada tənzimlənməsi, tərbiyə işində ideal məqsədin məzmununun müasir tələblər baxımından dəyişməsi, yeniləşməsi və təkmilləşməsi humanitar fənlərin məzmununda ifadə olunmuş milli-mənəvi dəyərlərə kompleks yanaşmağı tələb edir. Milli soykökə qayıdış, milli özünüdərk ailədə uşaqların tərbiyəsindən başlayaraq məktəbəqədər müəssisələrdə və orta məktəblərdə davam etdirilməlidir.

### Milli-mənəvi dəyərlərin formalaşmasınd ailənin rolu

Şəxsiyyətin yetişməsində mühitdən də əvvəl ailənin rolu böyükdür. Əsas dəyərlər məhz ailədə doğulur və formalaşmağa başlayır. Azərbaycanlı milli düşüncəsində ailə kiçik dövlət modeli kimi qəbul edilməklə, müqəddəs və ülvi sayılır. Böyüklərə ehtiram və hörmət, uşaqlara sevgi, diqqət və qayğı zəngin milli-mənəvi dəyərlərimizin başlıca qayəsini təşkil edir. Gənclərin ədalət və düzgünlük, humanizm, vətənpərvərlik, xeyirxahlıq, mərhəmət, xeyriyyəçilik, cəsarət və şücaət, mərdlik, təmizlik, halallıq, milli-mənəvi dəyərlərə bağlılıq, böyüklərə hörmət, əməksevərlik ruhunda tərbiyə edilməsindən əsas rollardan birini də ailə oynayır. Ona görə də, ailələrdə bu məsələlərə viddi fikir verilməlidir.

Təlim-tərbiyə işinin təşkilində dini maarifləndirilmənin də rolunu xüsusi qeyd etmək lazımdır. Bütün əxlaqi kateqoriyaların şərhi yolu ilə gənclərə sağlam həyat tərzi, düzgün yaşam fəlsəfəsi təbliğ olunmalı, milli-mənəvi və bəşəri dəyərlərə sadiqlik prinsipi önə çəkilməlidir. Gənc nəslin tərbiyəsində bədii ədəbiyyatın, mədəniyyətin, incəsənətin, folklor nümunələrinin, o cümlədən tanınmış yazıçı və şairlərin əsərlərinin mühüm rolu vardır. Eyni zamanda vətəndaşlarda dövlətçilik təfəkkürünün, millətə, Vətənə bağlılıq hisslərinin gücləndirilməsi baxımından dövlət atributlarına- Azərbaycanın bayrağına, himninə, gerbinə ehtiram və hörmətin vacibliyi təbliğ edilməlidir.

> Azərbaycan Respublikası müstəqillik yolu ilə inamla irəlilədiyi, demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir vaxtda milli-mənəvi dəyərlərin qorunması və gənc nəslə aşılanması xüsusilə aktuallıq kəsb edir. Ümummilli liderimiz Heydər Əliyevin təbirincə desək, "Gənclərimiz milli ruhda, bizim milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır"

### "Gənclər milli-mənəvi dəyərlərimiz əsasında tərbiyə olunmalıdır"

Ümummili lider bunu belə təsvir etmişdir: "Gənclərin ləyaqətli vətəndaş kimi yetişməsi ucun onlar hərtərəfli biliyə, milli keyfiyyətlərə malik olmalıdırlar. Oz dili, mədəniyyəti, mənəvi dəyərləri ilə tərbiyə olunmuş gənclər hec vaxt vətəninə, xalqına ogey munasibət bəsləməz. Gənclərimiz milli ruhda tərbiyə olunmalı, bizim milli mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidirlər. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, kecmişimizi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir".

Milli dəyərlərin, milli adət-ənənələrin zəruriliyi mərhum Heydər Əliyevin məruzə və cıxışlarında həmişə qururla soylənilirdi. Heydər Əliyev gostərirdi ki, milli mənəvi dəyərlər xalqın mənəvi sərvəti, mənəvi xəzinəsidir, bu sərvətə, xəzinəyə biganə olmaq cinayətdir. Son illərdə xalqımızın milli adətənənələrinə biganəlik halları haqlı olaraq xalqın, xususilə ziyalıların etirazına səbəb olmuşdur.

Bu etiraz və narazılıqlar haqqında mətbuatda cıxışlar milli-mənəvi dəyərləri qorumaq cağırışına cevrildiyi bir vaxtda mərhum prezident, umummilli liderimiz Heydər Əliyev bir sıra məqamlara aydınlıq gətirmiş, gorulıəcək işlərin perspektivini muəyyənləşdirmişdi: "Biz oz dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi butun iistiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu sınaqlardan kecmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik. Hər xalqın oz mentaliteti var. Bizim Azərbaycan xalqının mentaliteti onun boyuk sərvətidir. Hec vaxt iki xalq bir-birinə bənzəməz. Hec vaxt iki xalq bir-birinə bənzər dəyərlərə malik ola bilməz. Yenə də deyirəm, hər xalqın ozunə, oz tarixi koklərinə, əcdadları tərəfindən yaradılmış milli, mənəvi dəyərlərinə bağlılığı boyuk amildir. Biz də indi dunyanın mutərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə tərbiyələndirməliyik"

### Milli-mənəvi dəyərlər deyilərkən nələr nəzərdə tutulur?

Milli-mənəvi dəyərlər əlbətt çox geniş məvfumdur. Lakin burada birinci novbədə torpaq, dil, ocaq, əcdad, ovlad və qadınla bağlı şərəf, ləyaqət və namus ənənələrini nəzərdə tutmaq lazımdır. Muasir Avropada və Amerikada bir sıra xalqların milli faciə, qlobal fəlakət kimi yaşadığı muasir əxlaqi demoqrafik bəlalara (ailə-nikah-nəsil bohranı, alkoqol-narkoman-nihilizm sərxoşluğu ilə bağlı ifratlara) qarşı ən yaxşı sipər təbii-insani, milli tarixi sərvətləri muqəddəs tutub qorumaq, gələcək ucun də zədəsiz saxlamaq olmazdımı?! Təəssuf ki, belə sərvətlərə munasibətdə də həssaslığın lazımi səviyyədə olmadığı hallara rast gəlirik.

Mustəqil Azərbaycan dovlətinin mədəniyyət siyasətinin həyata kecirilməsində əsas cətinliklərdən biri də qloballaşmadır. Mustəqilliyə qədəm qoymuş gənc bir dovlət ucun qloballaşma adı altında millimənəvi dəyərlərinin sıxışdırılması, onun məhvinə gətirib cıxara bilər. Qloballaşma beynəlxalq aləmdə labüd olan bir proses kimi həyatımızdan yan kecə bilməz. Bir şərtlə ki, bu prosesdən umumi inkişafımız ucun səmərəli istifadə edə bilək.

Azərbaycan dünyada multikultiralizm dəyərlərinin nümunəsi kimi, etnik, dini, sosial mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların bərabər, həmrəy və qarşılıqlı dostluq şəraitində yaşadığı unikal ölkələrdəndir. Bu başəri dəyər olmamışdan əvvəl bizim milli dəyərimiz olub- lap qədimdən bu ənənə yaşadılıb bu günlərə kimi davam etdirilir. Hazırda isə bu həm dövlət siyasəti, həm də ictimai münasibətlər sistemi kimi inkişaf etdirilir.

### Prezident: "Qloballaşma adı altında böyük siyasətin təzahürlərini görürük"

Azərbaycan Prezidenti İlham Əliyev müasir dövrdəki bəzi təhlükələrə də toxunur: "Bu gün biz qloballaşma adı altında böyük siyasətin təzahürlərini görürük- gənclərin beyini bəzi xarici dairələr tərəfindən zəhərlənir, gənclər yoldan çıxarılır, onlar yalan informasiyalarla, böhtan, şər, təxribat xarakterli məlumatlarla üzləşirlər. Gənclər bəzi hallarda yəqin edə bilmirlər ki, hansı informasiya yalandır, hansı informasiya doğrudur. Ona görə müəllimlərdən çox şey asılıdır. Biz uşaqlarımızı, yeniyetmələrimizi, gənclərimizi xalqımıza, milli adətənənələrimizə zidd olan, dırnaqarası dəyərlərdən qorumalıyıq".

Prezident İlham Əliyev çıxışlarında qloballaşmanın pərdəarxasını açıq şəkildə göstərir və Azərbaycanın öz milli, mədəni, mənəvi dəyərləri əsasında, başqa sözlə Azərbaycançılıq ideologiyası əsasında inkişaf edəcəyini bildirir. Xalqımız da son dövrlərin təcrübəsindən göründüyü kimi, öz dəyərlərini qoruyub saxlamaqda əzmlidir. Bir sözlə dövlətin və cəmiyyətin bu məsələdə fikri yekdildir.

Azərbaycançılıq ideologiyası xalqımızın zəngin mədəni və mənəvi dəyərlər sistemi üzərində vahid və bölünməz vətəndaş cəmiyyəti yaratmağa xidmət edir. Biz bütöv bir cəmiyyətik və bütöv bir xalqıq. Min illər keçsə də, belə qalacağıq.

**Elçin Bayramlı**

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

30 sentyabr

# SƏS

Son səhifə

## Dünya 15 ildən sonra siqaretlərdən imtina edəcək?



Siqaret çəkmə dövrü tezliklə başa çatacaq. Dövlətlərin düzgün stimullaşdırılması və vətəndaş cəmiyyəti tərəfindən dəstək olduğu təqdirdə dünya yaxın 10-15 ildə siqaretə "yox" deyəcək. "Report"un "Philip Morris"" şirkətinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, belə bir proqnozu şirkətin baş direktoru Andre Kalantsopulos verib.

Kalantsopulosun sözlərinə görə, siqaretlər tüstünün nəfəs almasına ehtiyac olduğu üçün nikotin istehlakının ən zərərli yoludur. Bu baxımdan şirkət siqaret əvəzedicilərinin istehsalına diqqət yetirmək niyyətindədir. O, qeyd edib ki, artıq 11,2 milyon nəfərdən çox insan tüstü tənəffüsünü nəzərdə tutmayan alternativ məhsullara keçib.

## "Liverpul" qarşısıalınmazdır!



***Futbol üzrə İngiltərə Premyer Liqasında III turun mərkəzi görüşü "Liverpul" və "Arsenal" komandaları arasında keçirilib. "Enfild" stadionunda təşkil olunmuş qarşılaşma meydan sahiblərinin inamlı qələbəsi ilə yekunlaşıb - 3:1.***

İlk qolu 25-ci dəqiqədə qonaq komandadan Aleksandr Lyakazett vurub. "Liverpul" bundan 3 dəqiqə sonra Sadio Manenin, 34-cü dəqiqədə isə Endrü Robertsonun dəqiq zərbələri ilə fasiləyə öndə çıxıb. 88-ci dəqiqədə isə Dioqu Jota yekun nəticəni müəyyənləşdirib. Bu qələbə sayəsində xalını 9-a çatdıran "Liverpul" "Lester" və "Everton"la birgə ilk 3 pilləni bölüşür. İlk məğlubiyyətini alan "Arsenal" isə 6 xalla 5-ci yerdə gedir.

## Yarım milyon dollarlıq köhnə çaynik...

Britaniya sakininin çardaqdan tapdığı, Çin imperatoru Syan-lunun hakimiyyəti dövrünə aid köhnə çaynik hərracda 495 min dollara satılıb. Belə ki, çaynikin keçmiş sahibi babasının əşyanı Birinci Dünya müharibəsi zamanı Böyük Britaniyaya Asiyadan gətirdiyini bildirib. O etiraf edib ki, əvvəlcə çayniki antik əşyalar dükanına satmaq istəyib, lakin sonra ekspertlə məsləhətləşmək qərarına gəlib.



Lotun start qiyməti təxminən 50 min dollar olub. Lakin səkkiz nəfərin qiyməti dayanmadan artırması səbəbindən çaynik bundan on dəfə baha satılıb. Onu hərracın Londondan olan anonim iştirakçısı alıb.

## Diqqət: Onurğa beyini implantını 3D çapı vasitəsilə həyata keçirmək olar



3D-printerin köməyilə neyrointerfeys protezlərini fərdi anatomik xüsusiyyətlərinə tam şəkildə müvafiq olaraq düzəltmək mümkündür. Bir tərəfdən elektron qurğu ilə, digər tərəfdən əzələ və ya sinirlərlə əlaqə yaratmaq üçün neyrointerfeys lazımdır. Belə qurğular bu və ya digər səbəbdən iflic olmuş, müxtəlif sinir mərkəzləri arasında əlaqə pozulmuş insanlar üçün əsl xilasedici ola bilər.

"Nauka i jizn" saytının yazdığına görə, Rusiya və İsveçrə alimlərinin yaratdıqları elektrokimyəvi implant onurğa beyninin bərk qabığı altında yerləşdirilir. İmplant onurğa beyinində ətrafların hərəkətini idarə etməyi öyrədir. Onurğanın zədələnməsi səbəbindən baş beyinlə əlaqənin bərpası mümkün olmadıqda, bu implant müəyyən mənada ayağa qalxmağa kömək edir: idarəetməni onurğa beyini üzərinə götürür.

İmplant yumşaqdır: elastik polimer əsasda silikon-platin nanohissəcikdən ibarət elektrodlar yerləşdirilib. Elektrodlara qızıl "məftil" yeridilib - metal qalınlığı 35 nanometr olan qatlarla yerləşdirilib. Qatlardakı xüsusi çatlar "məftillərin" elastikliyi təmin edir. Lakin məsələ təkcə implantın yumşaqlığı ilə bitmir. Belə ki, implant ayrı-ayrı insanlarda konkret yerə yerləşdirilməlidir. Bu zaman onun ölçüsü fərdi xüsusiyyətlərə tam uyğun gəlməlidir (Yəni hər hansı orta ölçü seçməkdən söhbət gedə bilməz, hər kəs üçün fərdi hazırlamağa isə çox sərf olunur). 3D texnologiyası bu problemi həll edib. Onurğa beyninin implantı 3D texnologiyası sayəsində əldə edildikdən sonra təcrübə pişiklər və siçovullar üzərində aparılıb. Səkkiz həftə onurğa beyinində qalan implantat toxumanı qıcıqlandırmayıb, sinirləri sıxmayıb və demək olar, iltihab yaratmayıb. Digər tərəfdən, onun elektrodları funksionallığını saxlayıb. İmplant canlı orqanizmdə sınmayıb. 3D texnologiyası əsasında implantı tez və istənilən anatomik parametrə uyğun hazırlamaq mümkündür. Bundan başqa, 3D versiyasında daha ucuz materialdan istifadə etmək olar və bu, keyfiyyətə təsir göstərməyəcək.

## Koronavirusdan ömürlük qorunmaq üçün şərtlər açıqlandı

Bəzi şərtlərdə COVID-19-a qarşı immun qazanmaq mümkündür. Bunu Rusiyada ikinci koronavirus peyvəndini hazırlayan Dövlət Virusologiya və Biotexnologiya Araşdırmaları İnstitutunun baş direktoru Rinat Maksudov deyib. "Rossiya 1" telekanalına açıqlama verən Maksudov bildirib ki, bunun üçün immun sisteminin müəyyən xüsusiyyətlərə malik olması tələb edilir. Əlavə olaraq, xəstəliyin ağır keçməsi də şərtlərdən biridir. Peyvəndlə bağlı da danışan baş direktor qeyd edib ki, bu peyvənd 14 gün ərzində antitellər yaratmağa imkan verir. Lakin müdafiəyə kifayət edəcək qədər antitelin əmələ gəlməsi üçün 21 gün fasilə ilə ikinci dəfə vaksinasiya aparılmalıdır.



## Lənkəran sakinindən tapança götürülüb

Lənkəran sakinindən tapança və patronlar aşkarlanaraq götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi Rayon Polis İdarəsinin 4-cü polis şöbəsinin əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Lənkəran rayon sakini, əvvəllər məhkum olunmuş Anar Ələsgərovdan "Revol-B-1" markalı naqan tipli tapança və 2 ədəd patron aşkar edilərək götürülüb.

Faktla bağlı təhqiqat davam etdirilir.

## Bakıda evdən 2 800 dollar oğurlandı



Bakıda evdə oğurluq hadisəsi baş verib. Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən Publika.az-a verilən məlumata görə, oğurluq etdiyinə görə tutulan V.Seyidovun ətrafında Sabunçu Rayon Polis İdarəsinin 13-cü Polis Bölməsi əməkdaşları tərəfindən aparılan əməliyyat tədbirləri ilə onun rayon ərazisindəki evlərin birindən 2 800 ABŞ dolları, 300 manat pul və velosiped oğurlaması da müəyyən edilib.

## ELAN

1 saylı ASAN xidmət tərəfindən Mahmudov Murad Adil oğlunun adına verilmiş şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**